Günəş Şərqdən doğur!

❒ № 47 (5328), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

13 mart 2021-ci il (şənbə)



## Ölənlərin sayı da artdı

Bir gündə 576 nəfərdə koronavirus aşkarlanıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 576 yeni yoluxma faktı qeydə alınıb, 217 nəfər müalicə olunaraq sağalıb.

(Səh.9)

## Nitqində xeyli irəliləyiş var

Ürəyindən qəlpə yarası almış qazinin vəziyyəti yaxşılaşır



Vətən müharibəsi qazisi Elçin Səmədov müalicədən sonra yeni evinə dönüb.

(Səh.3)

Günün içindən...



## Prezident hərbi hissənin açılışında iştirak edib

Ali Baş Komandan İlham Əliyevə görülən işlər barədə məlumat verilib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 12-də - Daxili Qoşunların yaranması günündə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakının Sabunçu rayonunda yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.

(səh.2)

## Vahid informasiya bazası olacaq



Şəhidlərin və şəhid ailəsi üzvlərinin elektron reyestri yaradılacaq

(səh.2)

# Novruz bayramında əfv gözlənilir



## Əfv komissiyası ümumilikdə 1000-dən artıq müraciətə baxacaq

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyası ümumilikdə 1000-dən artıq müraciətə baxacaq.**

"Şərq"-in məlumatına görə, komissiya bütün kateqoriyalardan olan müraciətlərə baxır.

(səh.3)

## Avropa ittifaqına məlumat çatdırıldı

"Ermənistan Azərbaycan ərazilərinə hərbçi göndərməyə cəhd göstərir"

(səh.2)



## İmtahan tarixləri dəqiq deyil

Sosial şəbəkələrdə yayılan məlumatlar həqiqəti əks etdirmir

(səh.2)

## Ermənilər yeni müharibə qorxusu yaşayırlar

(səh.3)

## 248 erməni əsgərin meyiti hələ də morqdadı

Ermənistanın Azad TV kanalı bunu laqeydlik kimi təqdim edib

(səh.7)

## Hər il ekoloji fəlakətlər baş verəcək

"Gələcəkdə yaz və payız fəsli mövcud olmayacaq"

(səh.9)



## "Mərd, səxavətli oğlumla fəxr edirəm"

"Kaş bir körpəsi, bir nişanəsi qalaydı..."

(səh.8)

## "Şuşaya doğru hərəkətə başlayanda halallıq istədi"

Şəhid atası: "Döyüş yoldaşları elə şeylər danışırlar ki, heyrətlənirəm, indiyədək öz oğlumu tanımamışam"

(səh.9)



# Prezident hərbi hissənin açılışında iştirak edib



## Ali Baş Komandan İlham Əliyevə görülən işlər barədə məlumat verilib

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 12-də - Daxili Qoşunların yaranması günündə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakının Sabunçu rayonunda yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.**

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, hərbi hissədə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin yaxşılaşdırılması tədbirləri çərçivəsində qərargah və əsgər kazarması, yeməkxana, tibb, qarovul, texniki nəzarət, buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri avadanlıq və inventarla təchiz edilib. Mövcud binalar isə əsaslı təmir olunub. Hərbi hissədə mərkəzləşdirilmiş havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb.

Prezident, Ali Baş Komandan hərbi hissədə yeni inşa edilən qərargah, əsgər yataqxanası, tibb məntəqəsi və yeməkxana ilə tanış oldu.

Diqqətə çatdırıldı ki, hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb.

Qeyd edək ki, əsgər və zabitlərin xidmət şəraitinin yaxşılaşdırılması onların döyüş qabiliyyətini artırmaqla bərabər, istənilən vəzifənin icrasına birbaşa təsir göstərən amillərdəndir.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və kütləvi iğtişaşların dağıdılmasında istifadə olunan texnikaya və komendant postlarına baxdı. Bu postlar işğaldan azad olunmuş ərazilərdə xidmət aparmaq üçün hazırlanıb.

Qeyd edək ki, Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Daxili Qoşunların xüsusi təyinatlıları vahid komandanlıq altında Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların 9 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Prezident, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına, xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların mükafatlandırılmasına xüsusi diqqət yetirir.

Azərbaycan Prezidentinin 2021-ci il 12 mart tarixli Sərəncamına əsasən Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının iki hərbi qulluqçu "Vətən uğrunda", üç nəfər "İgidliyə görə", 7 nəfər isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunması bunun əyani göstəricisidir.

Xatırladaq ki, Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri kimi Daxili Qoşunlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsini həyata keçirməyə, ictimai asayişin mühafizəsinin, ictimai təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.

*Hərbi hissə ilə tanışlıqdan sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının bütün şəxsi heyətini təbrik etdi.*

## Avropa ittifaqına məlumat çatdırıldı

### "Ermənistan Azərbaycan ərazilərinə hərbçi göndərməyə cəhd göstərir"



**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında görüş baş tutub.**

Bu barədə "Şərq"ə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Görüşdə nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyət, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın ərazilərinə hərbçilərini göndərmək cəhdləri, gündəlik əsasda insanların həyatı üçün birbaşa təhlükə təşkil edən mina xəritələrinin Azərbaycana verilməsindən imtina edilməsi kimi məsələlər barədə qarşı tərəfə məlumat verib. Nazir, həmçinin bölgədə həyata keçirilən quruculuq və bərpa prosesləri, bu xüsusda Aİ-nin mümkün rolundan danışıb. Xüsusi nümayəndə Toivo Klaar bölgədə sülhün qazanılması üçün birgə çalışmağın vacibliyini qeyd etdi. Aİ-nin bölgədə sülh, təhlükəsizlik və tərəqqinin əldə olunması prosesini dəstəkləməyə hazır olduğunu vurğuladı. Tərəflər, eyni zamanda Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi apardılar.

## İmtahan tarixləri dəqiq deyil

### Sosial şəbəkələrdə yayılan məlumatlar həqiqəti əks etdirmir

**"Hazırda sosial şəbəkələrdə buraxılış (qəbul) imtahanlarının tarixləri ilə bağlı yanlış məlumatlar paylaşılır. Nəzərinizə çatdırırıq ki, imtahan tarixləri dəqiq müəyyən olunduqdan və müvafiq qurumlarla razılaşdırıldıqdan sonra Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunacaq və Mərkəzin dim.gov.az saytında yerləşdiriləcəkdir".**

Bu barədə "Şərq"ə Dövlət İmtahan Mərkəzindən (DİM) bildirilib.

"İmtahan tarixləri ilə bağlı sosial şəbəkələrdə paylaşılan məlumatlar həqiqəti əks etdirmir. Qeyd olunan məsələlərlə bağlı yalnız Dövlət İmtahan Mərkəzinə məxsus informasiya resurslarını izləməyi tövsiyə edirik", - deyə DİM-dən bildirilib.

## 7 iddiaçı var

### Qarabağda radionun açılması üçün sənəd qəbulu başa çatıb

AZƏRBAYCAN RESPUBLİKASI MTRŞ MİLLİ TELEVİZİYA VƏ RADİO ŞURASI

**Milli Televiziya və Radio Şurasının (MTRŞ) Qarabağda yeni regional radio kanalının açılması üçün 102,7 MHs işçi tezliyinə 10 fevral 2021-ci il tarixdən 12 mart 2021-ci il tarixədək elan etdiyi müsabiqə üçün sənəd qəbulu başa çatıb.**

MTRŞ-dan bildirilib ki, müsabiqə çərçivəsində 7 iddiaçı Şuraya sənədlərini təqdim edib. Bunlar "Real Təhlil İnformasiya Mərkəzi" MMC, "Caspian İnternational Broadcasting Company" MMC, "Balans Studiyası" MMC, "İNS ÇM" MMC, "İsti Press" MMC, "Azad Azərbaycan" Müstəqil Teleradio kompaniyası və "ARB 24" MMC-dir.

"Televiziya və radio yayımı haqqında" qanuna əsasən, MTRŞ müsabiqəyə sənəd qəbulunun başa çatmasından sonrakı 30 gün ərzində iddiaçıların sənədlərini araşdırıb müsabiqənin nəticələri barədə qərar qəbul etməlidir.

# Vahid informasiya bazası olacaq

## Şəhidlərin və şəhid ailəsi üzvlərinin elektron reyestri yaradılacaq

Azərbaycanda şəhidlərin və şəhid ailəsi üzvlərinin reyestri yaradılacaq.

Bu, Milli Məclisə daxil olan və birinci oxunuşda müzakirəyə çıxarılacaq "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsində əksini tapıb.



Qanun layihəsinə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) şəhid və şəhid ailəsi statusu almış şəxslərin vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemində şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrini elektron formada aparır. Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

Qeyd edilib ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq yaradılmış işçi qrupunun müvafiq qərarına əsasən şəhidlər, şəhid ailə üzvləri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və müharibə veteranları barədə vahid informasiya bazasının yaradılması nəzərdə tutulur.

Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin hazırlanmasında əsas məqsəd hazırki tarixədək verilmiş və bundan sonra veriləcək statuslar əsasında şəhidlər, şəhid ailə üzvləri barədə vahid informasiya bazasının yaradılması, müvafiq məlumatların toplanılması, saxlanılması və axtarışının avtomatlaşdırılmasının təmin edilməsidir.

Reyestrin təşkili gələcəkdə status verilmiş şəxslərin sayının dəqiqləşdirilməsi, onların uçotunun aparılması, şəxslərin (ailə üzvlərinin) statusları haqqında kağız daşıyıcılarda olan müvafiq vəsiqələrdən imtina edilməsi, onların dövlət orqanlarına müraciətləri zamanı statuslarının onlayn rejimdə müəyyən edilməsi, habelə sosial təminat hüquqlarına proaktiv qaydada baxılması imkanları yaradacaqdır.

Layihə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda şəhidlərin və şəhid ailəsi üzvlərinin reyestrinin yaradılması ilə bağlı yeni müddəanın təsbit edilməsini nəzərdə tutur.

# Ermənilər yeni müharibə qorxusu yaşayırlar

## 10 noyabr razılaşmasına əməl olunmasa, Azərbaycan yaxın günlərdə Qarabağda antiterror əməliyyatlarına başlaya bilər

**Ermənistanda son günlər Qarabağda yeni müharibə olacağı barədə ciddi təşvişlə müşahidə olunan müzakirələr gedir. Yazın gəlişi ilə Azərbaycanın bəzi güzəştlərdən imtina edəcəyi, xüsusilə Qarabağda qalan erməni ordusunun tör-töküntüləri və terrorçulara qarşı əməliyyat keçirəcəyi iddia edilir. Əslində ermənilərin bu təşvişi heç də təsadüf deyil.**



Məlum olduğu kimi martın 15-dən 18-dək Azərbaycan Ordusu 10 min canlı qüvvə, yüzlərlə hərbi texnika, aviasiya və PUA-ların iştirakı ilə antiterror təlimləri keçirəcək. Bununla yanaşı, Azərbaycan İsraildən 2 milyard dollar məbləğində silah alınması ilə bağlı müqavilə imzalayıb. Həm də Prezident İlham Əliyev Ermənistanın Zəngəzur dəhlizinə mane olmaq cəhdləri haqda "onları buna məcbur edəcəyik" ifadəsini işlədib. Separatçı Arutyunyanın "müşaviri" Tiqran Abramyan erməniləri sakitləşdirməyə çalışıb. O iddia edib ki, yaxın perspektivdə Qarabağda hərbi əməliyyatlar istisnadır, amma uzaq perspektivdə mümkündür. Abramyan yaxın müddətdə hərbi əməliyyatların yenilənməsini rus sülhməramlılarına görə istisna edib. O bildirib ki, Rusiya yeni hərbi toqquşmaya imkan verməyəcək. Qeyd edək ki, Qarabağda, rus sülhməramlılarının məsuliyyət zonasında erməni silahlılarının "postlarda" qulluq keçdiyinə dair videolar paylaşılıb. Bu isə 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata ziddir. Bəyanata görə, erməni silahlı birlikləri Azərbaycan ərazisini qeyd-şərtsiz tərk etməlidir. Erməni ordusunun 10 noyabr bəyanatından sonra Azərbaycan ərazisini tərk etməyən silahlıları terrorçulardır. Buna görə də Ermənistanda Azərbaycan Ordusu və DTX-nin antiterror əməliyyatı keçirə biləcəyi və bunun aprelə qədər mümkünlüyü haqda ciddi iddialar səsləndirilir.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə bildirib ki, Azərbaycan Qarabağ müharibəsindəki Zəfəri ilə regionda real hərbi-siyasi vəziyyət yaradıb.** Ekspertin sözlərinə görə, 10 noyabr bəyanatı sülh müqaviləsi olmasa da, ümumilikdə tərəflərin imzaladığı şərtləri yerinə yetirməsi üçün bütün imkanları yaradıb: "Razılaşmanın bütün bəndləri yerinə yetirilərsə, gələcəkdə yekun sülh müqaviləsi bağlana bilər. Lakin Ermənistanın revanşist qüvvələri regionda sabitliyin yaranmasında maraqlı deyil. Onlar Nikol Paşinyanı məğlubiyyətin əsas səbəbi olaraq görür və hərbi situasiyanın Ermənistanın xeyrinə dəyişə biləcəyi ilə bağlı absurd iddialarla çıxış edirlər. 44 günlük müharibənin gedişində Ermənistan müttəfiqləri tərəfindən hərtərəfli yardım almasına baxmayaraq, böyük məğlubiyyətə uğradı və müdafiə sistemi tamamilə çökdü. Bundan sonra Ermənistan ordusunun ortabab səviyyəyə çatması üçün normal iqtisadi inkişaf şərtləri daxilində ən azı 20 il vaxt tələb olunur. Azərbaycan Ordusu isə 44 günlük müharibənin gedişatında nəinki zəiflədi, əksinə, hərbi taktiki potensialını dəfələrlə artırmağa nail oldu. Təbii ki, bu nailiyyətlər qorunub saxlanılmalıdır. Ona görə də mütəmadi olaraq böyük masştablı hərbi təlimlərə ehtiyac var".

*Politoloqun fikrincə, hərbi təlimlər Azərbaycan ordusunun hərbi qüdrətini və taktiki potensialını artırmaq üçün nəzərdə tutulub:* "Rusiya və Ermənistandakı revanşist qüvvələrin hay-küy salaraq guya yeni müharibəyə hazırlaşdığımızı iddia etməsinin əsası yoxdur. Ancaq 10 noyabr razılaşmasının tələbləri yerinə yetirilməsində təxribat xarakterli hərəkətlər olarsa, 10 minlik təlim heyəti Qarabağda antiterror əməliyyatlarına başlaya bilər. Ermənistan öz pozucu hərəkətlərinin gələcəkdə baş verə biləcək məntiqi cavabını Azərbaycan tərəfinin müharibəyə hazırlaşmağı kimi qələmə verməyə çalışır. Eyni zamanda rəsmi Rusiyanın təlimlərlə bağlı verdiyi "Azərbaycan Ordusunun təlimləri sabitliyə və təhlükəsizliyə risk yaratmır" bəyanatı gələcəkdə öhdəliklərin yerinə yetirilməsi üçün onların üzərinə məsuliyyət qoyur. Nəzərə çatdırım ki, Ermənistan da 7500 nəfərlik heyətlə təlimlərə başlamaq barədə qərar qəbul edib. Ermənistanın iqtisadi durumuna baxsaq, indiki məqamda hərbi təlimlər mümkün görünmür. Bunun üçün hazırda Ermənistanın siyasi-hərbi və iqtisadi imkanları çox məhduddur".

**İsmayıl Qocayev**

# Nitqində xeyli irəliləyiş var

## Ürəyindən qəlpə yarası almış qazinin vəziyyəti yaxşılaşır



**Vətən müharibəsi qazisi Elçin Səmədov müalicədən sonra yeni evinə dönüb.**

İTV əməkdaşları qazimizin yeni evində qonaq olub. Bakıda müalicəsini uğurla başa vuran qazi Qəbələyə, evinə qayıdıb.

Müalicədən sonra Elçinin nitqində xeyli irəliləyiş var. Əvvəlkinə nisbətən az da olsa gəzə bilir. Günü gündən vəziyyəti daha da yaxşılaşır.

Qazinin yeni evi xeyirxah insanlar tərəfindən tikilib. O, əvvəllər vaqon evdə yaşayırdı.

Xatırladaq ki, Elçin Səmədov Vətən müharibəsində ürək nahiyyəsindən qəlpə yarası almışdı.

# Novruz bayramında əfv gözlənilir

## Əfv komissiyası ümumilikdə 1000-dən artıq müraciətə baxacaq



**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyası ümumilikdə 1000-dən artıq müraciətə baxacaq.**

"Şərq"-in məlumatına görə, komissiya bütün kateqoriyalardan olan müraciətlərə baxır. Mülkiyyət əleyhinə, sağlamlıq əleyhinə cinayətlər, iqtisadi cinayətlər, korrupsiya və rüşvətxorluqla bağlı cinayətlər, məişət zorakılığı ilə bağlı və digər cinayətlərlə bağlı müraciətlər, o cümlədən yol nəqliyyat hadisəsi törətmiş şəxslərin, əcnəbilərin və hərbi qulluqçuların müraciətlərinə komissiya tərəfindən baxılır.

*Qeyd edək ki, komissiyanın 8 iclası keçirilib və daxil olan yeni müraciətlərin 850-dən çoxuna baxılıb. Növbəti iclas bu gün keçiriləcək.*

*Komissiya iclaslarının gələn həftə yekunlaşdırılacağı və siyahının dövlət başçısına təqdim ediləcəyi nəzərdə tutulur. Novruz bayramı ərəfəsində əfv sərəncamının imzalanacağı gözlənilir.*

# Dövlət orqanlarına kvota qoyulmayıb

## Qazilərin işlə təmin olunması bir nömrəli məsələ olmalıdır

"Veteranların iş problemləri həll olunmalıdır" bu ifadələri tez-tez eşidirik. Amma çox təəssüf ki, veteranlarımızın işlə bağlı problemləri hələ də qalmaqdadır. Qeyd edək ki, məşğulluq haqqında qanunda hər bir qurumda əlillərin işləməsi üçün kvota müəyyənləşib. Amma demək olar ki, qurumların əksəriyyəti bu məsələyə riayət etmirlər.

Ona görə də əlillər işlə bağlı ciddi problemlə üzləşirlər və dəstək gözləyirlər. Əlillər üçün nəzərdə tutulan kvotalara müəssisələrin əməl etməsi istiqamətində ciddi dönüş yaratmaq üçün ilk növbədə ciddi işlər görülməlidir. Çünki əlillər cəmiyyətimizin ən həssas təbəqəsidir və onların iş yeri ilə təmin olunmasına daha çox çalışmalıyıq. Ən əsas da onlara dəstəyi ciddi şəkildə artırmaq lazımdır. Vətənimiz, torpaqlarımız uğrunda sağlamlığını itirmiş Qarabağ müharibəsi veteranlarının, əlillərinin işlə təminatı çox vacibdir. Günümüzün reallığıdır ki, bəzi özəl şirkətlər sağlamlığı məhdud olan qazilərimizi işə götürməkdə maraqlı deyillər. Bəs belə olan təqdirdə müharibədən çıxmış insanlar necə bir işlə təmin olunmalıdır? Ümumiyyətlə, onların işə götürülməsi ilə bağlı hansı zəruri tədbirlər görülməlidir?

**Mövzu ətrafında fikirlərini "Şərq"ə bölüşən "Altay" Sosial-Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı bildirib ki, bütün dövrlərdə və müharibələrdə bu məsələyə xüsusi yanaşma olub.** Müharibə veteranları ilk növbədə işlə təmin olunub, özü də mümkün qədər daha yaxşı işlərlə: "Həm dövlət, həm də qeyri-dövlət idarə və müəssisələrində bu məsələyə ciddi yanaşılmalıdır. Əmək Nazirliyi buna nəzarət etməli, məşğulluq mərkəzləri müharibə iştirakçılarının boş vakansiyalara yerləşdirilməsi üçün tədbirlər görməlidir. DOST mərkəzləri də bu işə ciddi yanaşmalıdır".



E.Bayramlı əlavə edib ki, müharibə əlilləri əlillik dərəcələrinə və iş qabiliyyətlərinə uyğun işlə təmin olunmalıdırlar: " "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının 25 avqust 1992-ci il tarixli 284 nömrəli Qanununda qeyri-dövlət idarə, müəssisə və təşkilatlarında əlil kvotası qoyulub. Belə ki, hər bir müəssisə öz işçilərinin müəyyən fazini əlillərdən götürməlidir. 25 nəfər və daha artıq işçisi olan idarə, müəssisə və təşkilatlarda işçi sayından asılı olaraq 3-5 faiz aralığında əlillər işə götürülməlidir. Yəni, 25 nəfər işçisi olan şirkət azı 1 nəfər əlili işə təmin etməlidir. Burada müharibə əlillərinə daha çox üstünlük verilməlidir. Amma təəssüf ki, qanunla bu kvota dövlət orqanlarına aid edilməyib. Bu çox səhv addımdır. Dövlət orqanlarında milyondan artıq işçi çalışır, onlara niyə kvota tətbiq edilmir mənə aydın deyil. Onsuz da xüsusi şirkətlər əlilləri işə götürməkdə maraqlı deyillər, amma dövlət orqanları maraqlı olmalıdırlar".

**E.Bayramlı vurğulayıb ki, qanunla yanaşı, burada vicdan məsələsi də önəmlidir:** "Ölkəmiz və xalqımız uğrunda döyüşüb sağlamlığını qurban vermiş, əlil olmuş insanların işlə təmin edilməsi bizim mənəvi borcumuz olmalıdır. Necə ki, onlar vətən və xalq qarşısında öz borclarını yerinə yetirdilər, biz də onlar qarşısında bu borcu yerinə yetirməliyik. Hesab edirəm ki, müvafiq dövlət orqanları bu məsələ ilə ciddi məşğul olmalıdırlar".

**Aynurə Pənahqızı**

# Maykl Rubin Türkün düşməni sayılır

## Türkiyəni Kiprin “işğal”ında suçlamaq absurd yanaşmadır

ABŞ, Avropa Birliyi və onların ərəb müttəfiqləri Kiprin "işğalına" görə Türkiyəyə sanksiyalar tətbiq etməlidirlər. Bu iddia ilə amerikalı konqresmen Maykl Rubin çıxış edib. Konqresmenə görə, Türkiyəyə ciddi sanksiyalar tətbiq etməyin zamanı çatıb: "BMT Təhlükəsizlik Şurasının çoxsaylı qətnamələri Kiprin "işğalına" son qoymayıb. Kipr dalanından çıxmaq üçün indi başqa yanaşmya ehtiyac var".



Siyasi şərhçilərin sözlərinə görə, amerikalı konqresmen Maykl Rubinin Kiprin “işğalı”na görə Türkiyəyə sanksiya çağırışı absurd və savadsız bir yanaşmadır. Kipr adasında heç bir işğal faktoru yoxdur. Ötən əsrin 70-ci illərində Yunanıstan Enozis planı çərçivəsində adanı işğal etmək üçün cəhd göstərib. Türkiyə isə öz növbəsində həm bu cəhdi aradan qaldırmaq, həm də adadakı türk əhalinin təhlükəsizliyini qorumaq üçün hərbi müdaxilə etdi. Bunun adı isə heç bir halda işğal ola bilməz. Bu gün əgər Kipr adasında gərginlik hökm sürürsə, bunun günahkarı rəsmi Ankara yox, Afinadır. Bu cür əsassız iddialar ABŞ-Türkiyə münasibətləri üçün də ciddi təhdiddir.

**Politoloq Natiq Miri “Şərq”ə vurğulayıb ki, Maykl Rubin Türkiyə düşməni kimi tanınır. Onun sözlərinə görə, Rubinin Türkiyəyə qarşı çıxması indiki gərginliklə bağlı deyil:** ”Türkiyədə hərbi çevrilişə cəhd zamanı Amerikalı konqresmenlərin ən ”aktivi” məhz Rubin idi. O, AKP hakimiyyətinin devrilməsini ciddi şəkildə dəstəkləyənlərdən biri olub. Hər vəchlə Türkiyəyə ağır sanksiyaların tətbiqini tələb edib. Türkiyəni Kiprin ”işğal”ında suçlamaq absurd yanaşmadır. Daha doğrusu, açıq-aşkar yalan iddiadır. Kipr əsrlərdir müsəlman toplumunun yaşadığı ərazi olub, Osmanlının tarixi torpağı sayılıb. 1974-cü ildə Türk Ordusunun Kiprə girməsi sayəsində adada yaşayan türklərin soyqırımının qarşısı alındı. Əks halda böyük qətliam baş verərdi. Halbuki, bu dəhşətli faciələr bütün gün ”insan hüquqlarından” dəm vuran Qərbin gözü qarşısında baş verirdi. Ancaq heç kim türklərin qətlinə qarşı çıxmırdı. Əgər Türkiyə geciksəydi, adadakı türklərin mühüm hissəsi öldürüləcək, yerdə qalanlar isə qovulacaqdı. Ona görə də ortada tarixi cəhətdən heç bir işğal faktı yoxdur. Təbii ki, belə şəraitdə hansısa sanksiyadan söhbət gedə bilməz”.

N.Mirinin qənaətincə, ABŞ gündəngünə güclənən Türkiyəni qarşısında deyil, yanında görmək istəyir: ”Ankara hökuməti başda Amerika olmaqla NATO üzrə müttəfiqlərini neytrallaşdırmaq üçün Rusiya və Çinlə siyasi-iqtisadi əməkdaşlıqdan çəkinmir. Türkiyəyə qarşı sanksiya NATO-nun cənub sərhədlərinin boş qalması deməkdir. Sanksiya və təzyiq dilində danışmaq zamanı çoxdan ötüb”.

**İsmayıl**



## Gözəl təşəbbüsdür, təqdir olundu

### Vətənpərvərlik haqqında qanun hazırlanır

**Azərbaycanda Vətənpərvərlik haqqında yeni qanun layihəsi hazırlanır. Milli Məclisin Elm və təhsil komitəsinin martın 15-də keçiriləcək iclasında bu barədə məsələ müzakirə ediləcək.**

*Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı mövzu ilə bağlı “Şərq”ə açıqlamasında bildirib ki, qanun layihəsində hərbi vətənpərvərlik tərbiyəsinə daha çox yer verilməlidir:* ”Hesab edirəm ki, bu çox gözəl təşəbbüsdür. İndiyə kimi həmin məsələ ilə bağlı qanunun olmaması əslində nöqsandır. Həmin sahədə kifayət qədər işlər görülür. Düşünürəm ki, bunun qanuni bazası olacaqsa daha yaxşıdır. Qanun layihəsində bütövlükdə vətənpərvərlik tərbiyəsinə diqqət yetirilməlidir. Bununla bağlı müəyyən institutların da yaranmasına ehtiyac var. Bağçadan başlayaraq, orta və ali təhsil müəssisələrində bu məsələyə ayrıca və xüsusi diqqət yetirilməlidir. Həmçinin hərbi vətənpərvərlik tərbiyəsinə də yer verilməlidir. Biz başqa ölkələrin təcrübəsində görmüşük ki, bir çox hərbi mərkəzlər yaradılır və ora gənclər cəlb olunur. Qanunda buna nəzər yetirilsə daha yaxşı olar”.

**Aytac Ali**

# “Ermənistanda 1999-cu ilin terroru təkrarlana bilər”

Məlum olduğu kimi, Ermənistanın Baş Qərargah rəisi Onik Qasparyan tutduğu vəzifədən azad edilib. Çünki Ermənistan Prezidenti Armen Sarkisyan müəyyən edilmiş vaxt ərzində nə onun qovulması barədə fərman imzalayıb, nə də Konstitusiya Məhkəməsinə şikayət edib. Bu barədə TASS Ermənistanın Baş naziri Nikol Paşinyana istinadən məlumat yayıb.

“Prezident Armen Sarkisyanın Silahlı Qüvvələrin Baş Qərargah rəisinin vəzifədən azad edilməsi haqqında fərman layihəsini imzalamaması, həm də eyni zamanda layihəyə Konstitusiya Məhkəməsində etiraz etməməsi faktını əsas götürərək 10 martdan etibarən Silahlı Qüvvələrin Baş Qərargah rəisi Onik Qasparyan tutduğu vəzifədən azad edilir” - deyə Ermənistan hökumətinin mətbuat xidməti N.Paşinyana istinadən xəbər yayıb.

Bu isə onu göstərir ki, daxili qarşıdurma getdikcə artır. Paşinyanla Sarkisyan sanki kəndir imiş, dövlət idarəçiliyini hərəsi bir tərəfə çəkirlər. Beləliklə, əslində bilə-bilə, göz görə-görə dövlətlərinin sonunu gətirirlər.

**BDU-nun professoru, politoloq Əlimusa İbrahimov Ermənistandakı vəziyyəti ”Şərq”ə şərh etdi:** ”Paşinyan Baş Qərargah rəisi Onik Qasparyanın istefasına nail olsa da, müxalifət mübarizədən və hərbi çevriliş cəhdindən belə tezliklə əl çəkməyəcək. Bəli, Onik Qasparyan rəsmi olaraq tutduğu vəzifəni tərk etdi. Onun vəzifədən azad edilməsi haqqında əmr verildiyi vaxtdan iki həftə sonra olsa da, qüvvəyə mindi. Nikol Paşinyanın növbəti əmri ilə Artak Davtyan artıq Ermənistan Silahlı Qüvvələrinin yeni Baş Qərargah rəisidir. Müxalifət isə qərarın qeyri-qanuni olduğunu sübut etmək üçün fəaliyyətini davam etdirir.

Onik Qasparyanın müdafiəsinə qalxan və özlərini ”Qarabağ hərbçiləri” adlandıran 124 nəfərin vəziyyəti isə olduqca çətinləşib. Onlar Azərbaycan əsgərlərinə tabe olub əsir düşmək, yaxud İrəvana gedib Paşinyanın göstərişi ilə həbsxanaya salınmaq arasında seçim etməlidirlər.

Təbii ki, həbsxana təkcə onların deyil, Paşinyana qarşı müxalifətlə birləşən bütün hərbçilərin gələcək məkanıdır. Zənnimcə, general paqonları və Rusiya xüsusi xidmət orqanlarına işləmələri onları Paşinyanın ”caynağından” qurtarmayacaq. İkinci bir tərəfdən, silahlı qüvvələrdə baş nazirin etibar etdiyi səriştəli kadrlar tükənməkdədir. Bunu 2020-ci ilədək Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi olmuş və karantin zamanı oğluna dəbdəbəli toy etdiyinə görə istefaya göndərilmiş Davtyanın geri qaytarılması isbat edir.

Amma hələlik Paşinyan vəziyyəti gərginləşdirmək deyil, sabitləşdirmək yolunu tutub. O, prezident Armen Sarkisyanla birlikdə bu istiqamətdə hərəkət edir. Baş qərargahda çıxışı zamanı hərbçilərə müraciəti dediyimiz fikrin əyani sübutudur: ”Onik Qasparyan qanuna uyğun olaraq silahlı qüvvələrin baş qərargah rəisi vəzifəsindən azad edilib. Ermənistan qarşısında xidmətlərinə görə cənab Qasparyana təşəkkür edirəm... Burada oturanların hamısından xahiş edirəm, Ermənistan naminə fəaliyyətlərini davam etdirsinlər”.



“Müxalifət mübarizədən və hərbi çevriliş cəhdindən belə tezliklə əl çəkməyəcək”

**Politoloq daxildəki durumun bundan sonra daha da qəlizləşəcəyi qənaətindədir:** ”Yeni Baş Qərargah rəisinin vəzifəsinin icrasına başlaması üçün hələ müəyyən qaydalara əməl olunmalıdır. Prezident üç gün müddətində baş nazirin sərəncamını imzalamalıdır. Əks təqdirdə sərəncam yenidən Nikol Paşinyana geri göndəriləcək və o, ikinci dəfə prezidentə müraciət edəcək. Bəlkə, nəzəri cəhətdən Armen Sarkisyan istəsə idi, Onik Qasparyanı vəzifəsində saxlaya bilərdi. Amma Paşinyanla qarşıdurmanı son həddədək çatdırmaqda maraqlı olmadığını göstərdi.

Ola bilsin, baş nazirin əlində olan və istifadə etməyə hazırlaşdığı məlumatlar prezidentin onunla razılaşmasına təsir göstərdi. Ermənistan prezidenti bununla müxalifətin ona bəslədiyi ümidi itirdi. Bundan sonra İrəvan küçələrində səslənən şüarlar zamanı Armen Sarkisyanın da adı Paşinyanla birgə xain kimi çəkiləcək.

13 martda Prezident Armen Sarkisyan ”Ölkənin xilası hərəkatı”nın üzvləri və Ermənistan parlamentinin fraksiya liderləri ilə görüşmək istəyir. Görüş zamanı prezidentin ölkədə vəziyyəti sabitləşdirmək üçün ortaya atacağı təkliflər haqqında qabaqcadan fikir söyləmək çətindir. Amma müxalif qüvvələrin yeni yaranmış şəraitə uyğun mübarizə vasitələri haqqında düşündükləri artıq məlumdur.

Hərçənd, onların əllərindəki vasitələr son həddə qədər məhdudlaşdırılıb. İndi Ermənistanda 1999-cu il 27 oktyabrında parlamentdə baş verən terrorun bu və ya digər formada təkrarlanması daha real görünür.

Xatırladım ki, həmin terror nəticəsində Nairi Hunanyanın başçılıq etdiyi 5 silahlı şəxs paytaxt İrəvanda Ermənistan Milli Məclisinə silahlı basqın etmişdi. Nəticədə ölkənin siyasi rəhbərliyindəki de-fakto qərar qəbul edən Baş nazir Vazgen Sarkisyan və parlamentin spikeri Karen Dəmirçiyan daxil olmaqla 8 nəfər öldürülmüşdü.

Sarkisyan və Dəmirçiyanın islahata meyilli koalisiyası həmin ilin mayında keçirilən parlament seçkilərini səs çoxluğu ilə qalib gəlmiş və praktiki olaraq Prezident Robert Koçaryanı siyasi səhnədən kənarlaşdırmışdı”.

**Kənan Novruzov**

# Gənclərin YAP-ın rəhbərliyinə yolu açıldı

## Şahlar Əsgərov: "İşləsinlər, diqqətlə izləyib qiymətləndirərik"




Bu günlərdə Yeni Azərbaycan Partiyasının (YAP) 7-ci qurultayının keçirilməsi respublikamızın ictimai-siyasi həyatında böyük hadisə kimi yadda qaldı. Qurultayda vacib dəyişikliklər həyata keçirildi. Partiyanın yeni Nizamnaməsinin qəbul olunması, İdarə Heyətinin 40 nəfərdən ibarət tərkibdə seçilməsi partiyada fəaliyyətin tənzimlənməsinin yeni və çevik mexanizminin yaradılması baxımından aktuallıq kəsb edir.

"Şərq" olaraq YAP Siyasi Şurasının üzvü, sabiq deputat, məşhur "91-lər"dən olan professor Şahlar Əsgərovla əlaqə saxlayıb qurultaydakı dəyişiklikləri müzakirə etdik:

**- Sizcə, hakim partiyadakı növbədənkənar qurultay nə ilə bağlı idi?**

- Bu qurultay gözlənilən idi. Çünki ölkədə ictimai-siyasi vəziyyət çox dəyişmişdi. Artıq torpaqlarımızın 95 faizi qaytarılıb. Bundan qabaq isə dövlətin daxili idarəetmə və kadr sistemində gənclərə üstünlük verilirdi. Xalqın etibarını doğrultmayan şəxslər idarəetmədən uzaqlaşdırılırdı. Bütün bunlar isə YAP-ın 7-ci qurultayının keçirilməsini zəruri etdi.

**- Qurultayda yeni qərarlar qəbul edildi...**

- Fikrimcə, yeni qərarların qəbulu yerində idi. İlk növbədə Siyasi Şuranın aradan götürülməsini alqışlayıram. Çünki Siyasi Şura gənc kadrların hər hansı bir proqramı idarəetməsində bufer idi. YAP İdarə Heyətinin 20 nəfərdən 40 nəfər tərkibə keçməsi, Veteranlar Şurasının yaradılması və Siyasi Şuranın aradan götürülməsi mütərəqqi qərardır. Gənclərin birbaşa və çox asanlıqla partiyanın rəhbərliyinə gəlməsi üçün yol açıldı. Gənclərin hakimiyyətə cəlb olunmasının tərəfdarıyam. Lakin hər bir insanın iki mənafeyi var: bunun biri şəxsi, digəri isə ictimai mənafedir. İnsan anadan olanda şəxsi mənafe ilə doğulur. Sonra təhsil aldıqca onun qəlbində vətənpərvərlik, yeni ictimai mənafe meydana gəlir. Gənclərdən biri vəzifəyə gəlmək istəyəndə onun şəxsi və yaxud ictimai mənafeyinin çox olub-olmadığını ölçmək lazımdır. İctimai mənafeyi çox olan gənclərdən ikiəlli yapışmaq lazımdır. Belə gənclər idarəetmədə olmalıdır. Onlar millət üçün gərəkli adamlardır. Amma şəxsi mənafelərini güdən insanlardan dövləti və milləti qorumalıyıq. Partiya kifayət qədər yeniləndi, yeni güc və ideyalarla zəngin oldu. Partiyanın yaranmasında ilk gündən iştirak edən və məni yaşda olanlar isə Veteranlar Şurasında toplanıb, öz təcrübə və praktikası ilə gəncləri məlumatlandıracaq.

**"Yeni heyətin hansı düşüncə ilə partiyaya gəlməsi önəmlidir. Özlərini varlandırmaq üçün gəliblər, yoxsa dövləti? Öz mənafelərini güdəcəklərsə, hökmən varlanacaqlar, amma zəifləyən dövlət olacaq"**

**- Bəs yeni heyətdən razısızmı?**

- Tanıdığım və hazırda yeni heyətdə yer alanlardan razıyam. Lakin tanımadıqlarım var ki, onlar barədə fikir bildirməyin tez olduğunu düşünürəm. İşləsinlər, diqqətlə izləyib qiymətləndirərik. Yeni heyətin hansı düşüncə ilə partiyaya gəlməsi önəmlidir. Özlərini varlandırmaq üçün gəliblər, yoxsa dövləti? Öz mənafelərini güdəcəklərsə, hökmən varlanacaqlar, amma zəifləyən dövlət olacaq. Yox, dövlətə qulluq üçün gəliblərsə, çox yaxşı nəticələr əldə edəcəyik.

**- 6 siyasi partiyanın YAP-a birləşməsini necə dəyərləndirirsiniz?**

- Ölkədə partiyaların sayı nə qədər azalsa, bir o qədər yaxşıdır. Fikrimcə, Azərbaycanda partiyaların sayı lazım olandan çox idi. 7-ci qurultayda 6 partiya YAP-a qoşuldu, növbəti qurultayda bu proses davam edərsə, çox yaxşı olar. Bunu cəmiyyətin sağlamlaşması kimi qiymətləndirmək olar.

**Söhbətləşdi: Yeganə Bayramova**



## Hər ABŞ vətəndaşı 1400 dollar ödəniş alacaq

### Bayden cəmiyyəti barışığa, ümumi sabitliyə səsləyir

**ABŞ Prezidenti Co Baydenin COVİD-19-a qarşı tələb olunan 1,9 trilyon dollarlıq iqtisadi dəstək paketi Senat tərəfindən qəbul edilib. Qanun layihəsinin qəbul edilməsi 11 saat 50 dəqiqə vaxt aparıb ki, bu da Amerika Senatında rekord göstərici olub.**

"Amerika qurtuluş planı" adlanan sənədin imzalanma mərasimi ölkənin xəbər kanalları tərəfindən Ağ Evdən yayımlanıb. Qeyd edək ki, iqtisadi dəstək paketinə əsasən, şəxsi təsərrüfatlara 1 trilyon dollar birbaşa ödəmələr nəzərdə tutulur. 415 milyard dollar koronavirusla mübarizəyə və peyvəndlənməyə, 440 milyard dollar isə kiçik şirkətlərə və sosial təşkilatlara ayrılacaq.

**Baydenin daxili iqtisadi həmləsini "Şərq"ə dəyərləndirən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bunun hökumət tərəfindən qəbul olunan ikinci böyük paket olduğunu deyib.** Budəfəki paketə görə, hər ABŞ vətəndaşına 1400 dollar birdəfəlik ödəniş nəzərdə tutulub: "Bu yardım ölkə əhalisinə koronavirusun vurduğu ziyanın ortadan qaldırılması, insanların sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı atılmış addımdır. Siyasi ayağı isə ondan ibarətdir ki, prezident ona qarşı olan vətəndaşları bir növ qazanmağa cəhd göstərir. Məlumdur ki, seçki dönəmində Amerika cəmiyyəti iki cəbhəyə bölünmüşdü. Tramp tərəfdarları ilə Co Bayden tərəfdarları arasında qarşıdurma hökm sürürdü. Bayden bu qərarı ilə cəmiyyəti barışığa, ümumi sabitliyə səsləyir. Hər bir amerikalıya maddi yardım ayrılması məhz buna hesablanıb. Həftə sonundan bu ödəmələrə başlanılacaq. Ancaq bu, o demək deyil ki, Bayden xarici siyasətə az diqqət ayıracaq və bütün fəaliyyətini daxili siyasətə, iqtisadiyyata həsr edəcək. Addımlar paralel atılacaq. Xarici siyasətdə də müəyyən gedişlər edilir. İrimiqyaslı iqtisadi paketin isə məqsədi əhalinin maddi vəziyyətini yaxşılaşdırmaq və biznes qurumlarının fəaliyyətinə dəstək olmaqdır".

**İsmayıl**

# "Bir qazinin dərmanını pulsuz verən heç bir aptek yoxdur"

## Hər kəs qazilərimizin rahat yaşaması üçün işlər görməlidir

Vətən müharibəsində iştirak edərək ayağını itirmiş qazimizin feysbukda videosu yayılıb. Qazi ayağının dizdən aşağı hissəsinin kəsildiyi üçün ona 3-cü qrup əlillik dərəcəsinin təyin edildiyini söyləyir: "Aidiyyəti qurumlar üçün bunun heç bir əhəmiyyəti yoxdur. Gərək götürüb balta ilə ayağımı dizdən yuxarı kəsim ki, mənə 1 və yaxud 2-ci qrup əlillik versinlər? Sosial Müdafiə Fondu düşündü ki, ayağımı harada və necə itirmişəm?".

Ölkəmizin gündəmini zəbt edən mövzulardan biri qazilərimizə qarşı olan biganə münasibətdir. Yenə də əlillik dərəcəsi düzgün təyin edilməyən və dəyər verilməyən Qarabağ qazisinin videosu yayılıb. Ortaya belə bir sual çıxır: Vətən müharibəsində iştirak edib can qoyan, əlil olan qəhrəman oğullarımıza dəyər vermək bu qədərmi çətindir?

**Baş verənləri "Şərq"ə şərh edən "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin sədri, Qarabağ qazisi Firidun Məmmədov bildirib ki, son zamanlar Qarabağ müharibəsində əlil olan qazilərimizin ciddi problemlərinin olduğunu görürük:** "Onların hər cəhətdən sıxıntıları var. Müharibədə nə qədər insanın qazi olacağını müəyyənləşdirmək çətin idi. 300 min nəfər müharibədə səfərbər oldu, 200-mindən artığı aktiv döyüşlərdə iştirak etdi. 17 min nəfərə müxtəlif formalarda güllə



gəldi, 11 min nəfər stasionar qaydada müalicə olundu, 3 minə yaxını isə şəhid oldu. Müvafiq strukturlar hələ ki, həmin şəxslərin probleminin öhdəsindən gəlməyə çalışırlar. Lakin proqram tam formalaşmadığı üçün ciddi problemlər yaşayırıq".

Birlik sədri qeyd edib ki, əsas şikayətlər icra hakimiyyətləri və bələdiyyələrdəndir: "Problemi yalnız dövlət strukturlarının üzərinə atmaq olmaz. Baş verənlərdə sevgi amili, vətənpərvərlik rol oynamalı, hər kəs əlini daşın altına qoymalıdır. Hamı bilir ki, bir qazinin dərmanını pulsuz verən heç bir aptek yoxdur. İmkanı olan qonşu və qohumlar könüllü olaraq yardım etməlidir. Necə ki, müharibə vaxtı bütün xalq birlik nümayiş etdirdi. Təbii ki, dövlət də ciddi islahatlar aparmalıdır".

*F.Məmmədov qeyd edib ki, həqiqətən də torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş gənclərin rahat yaşamasını istəyiriksə, dövlət tərəfindən çox radikal və cəsarətli islahatlar həyata keçirilməlidir:*

"Amma bu islahatlar aparılmır. Sadəcə müəyyən işlər görüldü, müvafiq yardım fondları yarandı. Lakin bu, sadəcə dövlətin edə biləcəyi işlərdir. Könüllü ianələrin verilməsinə fikir vermək lazımdır. Bir sözlə, hər kəs qazilərimizin rahat yaşaması üçün işlər görməlidir".

**Yeganə Bayramova**

# Uğursuz cəhddir

## Əmək Məcəlləsinə edilən dəyişiklik problemlərin qarşısını ala bilməyəcək

Əmək Məcəlləsinə dəyişikliklər Milli Məclisin plenar iclasının ikinci oxunuşunda qəbul olunub. Məcəlləyə ümumilikdə 12 dəyişiklik nəzərdə tutulub. Dəyişikliklərin əsas mahiyyəti qeyri-rəsmi məşğulluğun aradan qaldırılması yollarının hüquqi tənzimlənməsi ilə əlaqədardır. Qeyd edilib ki, Azərbaycanda rəsmi statistikaya əsasən 600 min nəfər qeyri-rəsmi çalışan işçi var. Bu, həmin insanların əmək, istirahət, digər sosial təminat münasibətlərinə, habelə pensiya təminati məsələlərinə mənfi təsir göstərir.

Qanunvericilik təşəbbüsü işçilərin əmək hüquqlarının möhkəmləndirilməsinə, onların istirahət, məzuniyyət, sosial təminat, habelə gələcəkdə pensiya təminati məsələlərinin müsbət həll edilməsinə yönəlib. Vətəndaşların işlə təmin edilməsi Əmək Məcəlləsinin tələblərinə uyğun olmalı, onların sosial müdafiəsi məsələsi gücləndirilməlidir. Əmək Məcəlləsinə təklif olunan dəyişikliklər vergi və məcburi dövlət sosial sığorta haqqının ödənişlərindən yayınma və əmək münasibətləri prosesində mülki-hüquqi münasibətlər formasından sui-istifadə hallarının qarşısının alınması ilə əlaqədardır. Məcəllənin 7-ci maddəsində nəzərdə tutulan əlavəyə görə, tərəflər arasında əmək münasibətləri hesab edilən bir sıra hallar göstərilir və bildirilir ki, onların mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinə yol verilmir. Bu hallardan biri aşkar edildiyi gündən bu maddənin 2-ci hissəsinə uyğun olaraq yazılı əmək müqaviləsi bağlanmalıdır.

Bir sıra ekspertlərin sözlərinə görə, dəyişikliklər qüvvəyə mindikdən sonra KİV-lərdə və QHT-lərdə işçini mülki-hüquqi müqavilə ilə çalışdırmaq praktikasına da son qoyulacaq. Çünki mülki-hüquqi müqavilə hamımızın xidmət müqaviləsi kimi tanıdığımız razılaşma formasıdır. İndiyədək demək olar ki, bütün qəzet və saytlarda, eyni zamanda QHT-lərdə çox az işçinin rəsmiləşdirilməsi əmək müqaviləsi vasitəsilə reallaşdırılırdı. Belə qurumlarda çalışan işçilər rəhbərliyin tövsiyəsi ilə özlərinə VÖEN açaraq əmək haqqı deyil, xidmət haqqı alırlar.

**Mövcud qanunla bağlı tənzimlənməni "Şərq"ə dəyərləndirən Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli deyib ki, bu məsələ Əmək Məcəlləsində öz əksini tapıb.** Məcəllədə göstərilib ki, daimi fəaliyyət göstərən müəssisədə daimi çalışan işçi ilə müddətli müqavilə bağlamaq olmaz. M.Ələsgərlinin sözlərinə görə, əgər müəssisə daimi fəaliyyətdirsə, işçilərlə müqavilələr də daimi olmalıdır: "Əslində bu məqam işçinin xeyrinədir. Çünki xidməti müqavilə ilə çalışan işçilərin gələcəkdə fəaliyyətinə xitam verilməsi hallarında onların hüquqlarının müdafiəsində problemlər yaranır. Həmkarlar İttifaqı olaraq bu məsələni zaman-zaman qaldırırdıq və bəyan edirdik ki, Azərbaycan mediasında bu cür problemlər var. Əfsuslar olsun ki, daimi redaksiyalarda belə işçilərlə müddətli müqavilələr bağlanılır. Bu da sonda işçilərin hüquqlarının pozulması ilə nəticələnir. O baxımdan məsələyə konkretlik



gətirilməsi yaxşı haldır. Xidməti müqavilə ancaq işçinin xidmətinin qarşılığını, hüququnu tanıyır. Amma onun işçi kimi hüquqlarını tanımır".

Media təmsilçisinin qənaətincə, dəyişiklik media qurumlarının özü üçün problem yaratmaycaq: "Hazırda "Yeni Media qanunu" adlı başqa bir qanunvericilik layihəsi hazırlanır. Yaxın vaxtlarda parlamentə təqdim olunacaq. Qanunun ictimai müzakirələrində mən də iştirak etmişəm. Həmin qanunda yer alan xüsusi müddəaya görə, Azərbaycanda sərbəst çalışan jurnalistlərin hüquqları tanınmış olacaq. Qanun qəbul olunandan redaksiyalarda ştatdankənar çalışan müxbirlərlə əməkdaşlıq problemi aradan qalxacaq. Qanunla müəyyən olunacaq ki, sərbəst jurnalistlər də media nümayəndələri sayılır, amma konkret hansısa KİV-lə əməkdaşlıq etmirlər. Sadəcə öz məhsullarını müqavilə qarşılığında hansısa redaksiyaya satırlar. Belə olan təqdirdə redaksiyaların da problemi aradan qalxmış olacaq".

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov isə "Şərq"ə açıqlamasında Əmək Məcəlləsindəki növbəti dəyişikliyi uğursuz cəhd adlandırıb:** "Bir yerdə ki, işçi əmək müqaviləsi ilə işə cəlb olunmalıdır, yəni görülən iş, göstərilən xidmət muzdlu işin xarakterinə uyğundur, orada işçilərlə mülki-hüquqi müqavilələr bağlanılırdı. Dəyişiklikdə məqsəd bunun qarşısını almaqdır. Əslində bununla bağlı xeyli cəhdlər olub. Qanunvericiliyə, Vergi Məcəlləsinə çoxsaylı dəyişikliklər edilib. Amma dəyişikliklər sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin vəziyyətini ağırlaşdırmaqdan o yana keçməyib. Bu dəfə də ciddi nəticə gözləmirəm. Əslində mexanizmlər düzgün tapılsa, bu, olmalıdır. O yerdə ki, işçi müəssisənin daxili qaydalarına, Əmək Məcəlləsi və əmək qanunvericiliyinə uyğun işləyirsə, onunla mülki-hüquqi müqavilə bağlanmalı deyil. Belə halda həm işçi itirir, həm də dövlət büdcəsinə, sosial ödəmələrə mənfi təsir edir. Ancaq təklif olunan dəyişikliyin bu problemin qarşısını almağa gücü çatmayacaq. Ola bilsin, sadəcə vəziyyəti bir qədər yaxşılaşdırsın".

S.Məmmədov vurğulayıb ki, mülki-hüquqi müqavilələr Mülki Məcəllənin əsas institutlarından biridir və onu təxirə salmağa heç kimin ixtiyarı yoxdur: "Əgər müqavilə əsasında sifariş tapşırığı, yaxud xidmət tapşırığı həyata keçirirəmsə, yoxlayıcı orqan bunu yoxlaya bilər. Araşdırarlar ki, doğrudan da burada mülki işçi çalışır, yoxsa sadəcə olaraq onları aldadırlar. Amma məhdudiyyətlərlə problemin qarşısını almaq çətin olacaq".

**Ekspert KİV və QHT-lərlə bağlı da fikirlərini ifadə edib**: "QHT bir layihə həyata keçirirsə, təbii ki, orada layihəyə rəhbərlik edən şəxsin əmək müqaviləsi olmalıdır. Amma tutaq ki, təlim keçməyə ekspert cəlb edirsə, yaxud hansısa sənədin hazırlanması üçün mütəxəssisə sifariş verirsə, bu halda əmək münasibətlərinin yaranmasına ehtiyac yoxdur. KİV-lərdə isə yanlış praktika var idi. Xüsusən, özəl televiziyalarda işçilərlə əmək müqaviləsi bağlanmırdı. Əvəzində mülki-hüquqi müqavilə bağlayırdılar və həmin adam illərlə telekanalda çalışırdı. Bu, problemdir. Ancaq televiziya hansısa proqram üçün ekspertə müraciət edirsə və ondan bir neçə verilişin təqdim olunmasını istəyirsə, belə əməkdaşla mülki-hüquqi müqavilə bağlana bilər. Çünki həmin işçi müəssisənin daimi ştatında olmur. Lakin bir işçinin illərlə faktiki muzdlu kimi çalışdırılması doğru deyil və bunun qarşısı alınmalıdır".

**İsmayıl Qocayev**

# Küçələr dolub, boşalır

## Ermənistanda hakimiyyət dəyişikliyi gözlənilmir

Ermənistanda hakimiyyət və müxalifət arasında mövcud ziddiyyət davam etməkdədir. Ölkədə yaranmış siyasi böhran daha da dərinləşir. Bu proseslərin gələcəkdə Ermənistanı təkcə siyasətdə yox, iqtisadiyyat, sosial həyat və digər istiqamətlərdə daha böyük problemlər yaradacağı şübhəsizdir. Artıq həftələrdir ki, bir-birinin istefasını tələb edən Ermənistan siyasi və hərbi rəhbərliyi ümumi razılığa gələ bilmir.

İrəvan küçələri demək olar ki, hər gün mitinqlərə şahidlik edir. Əslində, bu ölkədə hakimiyyətə qarşı etirazlar Ermənistan, Azərbaycan və Rusiya dövlət başçıları arasında noyabrın 10-da Qarabağ müharibəsinin dayandırılması haqqında bəyanat imzalandıqdan sonra başlayıb. Erməni KİV-ləri iddia edir ki, bu münaqişələr səngiməyəcək. Əksinə, Ermənistan müxalifəti ölkədə yaranmış xaosdan - baş nazir, prezident və ordu rəhbərliyi arasındakı intriqadan istifadə edərək növbəti dəfə inqilaba cəhd edəcək. Hətta erməni mətbuatları İrəvandakı siyasi oyunlarda artıq iki tərəf deyil, üçüncü qüvvənin də meydana atıldığını iddia edir. Maraqlıdır, bu "üçüncü qüvvə" kimdir və situasiya hansı tərəfin lehinədir? Ermənistanda siyasi gərginliyin növbəti mərhələsi nə vəd edir?




**Suallarımızı cavablandıran politoloq Nurlan Qələndərli "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistanda baş nazir ilə prezident və ordu rəhbərliyi arasındakı siyasi intriqa gərginliyini artırıb:** "Bu günləri iqtidar cinahının hakimiyyət daxilindəki qarşıdurmadan qalib və üstün tərəf kimi çıxdığı, öz mövqeyini gücləndirdiyi söylənilsə də, hər hansı bir konkret nəticədən bəhs etmək olmaz. Ayrıca, müxalifətin siyasi pusquda dayanaraq növbəti həmlə fürsəti güdməsi də reallıqdır. Ona görə də məğlub ölkədə ictimai-siyasi gərginliyin azaldığını, yaxud qarşıdurmanın səngidiyini söyləmək mümkün deyil. Proseslərin önümüzdəki günlərdə də zaman-zaman artan və azalan dinamika ilə cərəyan edəcəyini proqnozlaşdırmaq olar".

Politoloqun sözlərinə görə, Ermənistanda baş nazir-ordu rəhbərliyi qarşıdurması müxalifət üçün "taymaut" götürməyə və resursları yenidən səfərbər edərək təşkilatlanmağa imkan yaradıb: "Hətta hakimiyyət daxilindəki bəzi qüvvələrin də müxalifətlə işbirliyi üçün təmaslar yaratdığı qeyd edilir. Ermənistan mətbuatı Paşinyana qarşı təşkil edilmiş bu müqavimət qrupunu "üçüncü qüvvə" adlandırır. Amma məsələ ondadır ki, hazırkı situasiyada konfrontasiya tərəflərinin güc və təsir nisbəti iqtidarın lehinədir. Müxalifətin həlledici ictimai dəstək əldə qazanmağı bacarmaması, hakimiyyətdaxili müxalif qruplaların koordinasiyalı hərəkət edə bilməməsi və digər bu cür amillər Paşinyana rəqiblərinin həmlə qüvvəsini zəifləmə şansı verir".

**N.Qələndərli qeyd edib ki, Paşinyan həm hakimiyyət daxilindəki, həm də klassik müxalifətin manevr imkanlarını daraltmaq üçün repressiv metodlardan istifadə edərək siyasi pressinqi davam etdirəcək:** "Müxalif qüvvələrin isə iqtidara təzyiq aksiyalarının davam edəcəyini düşünürəm. Siyasi səhnəyə "üçüncü qüvvə"nin daxil olub-olmamasından asılı olmayaraq, proseslər bu cür cərəyan edəcək. Belə bir şəraitdə Ermənistanda xaos, böhran və gərginliyin davam edəcəyi qənaətindəyəm. Lakin etiraz aksiyaları və ehtimal olunan çevriliş cəhdlərinin hakimiyyət dəyişikliyi ilə nəticələnəcəyini proqnozlaşdırmaq olmaz".

**Aynurə Pənahqızı**

# “Yurddaş”ın birləşmək təklifi üzvlərimizdən gəlmişdi”



## Gülayə Səfərova: “YAP-da bizə hansı işi versələr, fərqi yoxdur”

**Martın 5-də Yeni Azərbaycan Partiyası (YAP) növbədənkənar 7-ci qurultayını keçirdi. Cəmiyyət tərəfindən diqqətlə izlənən qurultayda bir çox maraqlı məqamlar baş verdi. Partiyanın Siyasi Şurası buraxıldı. Yeni bir qurum - Veteranlar Şurası yaradıldı. Təşkilatdakı İcra Aparatı institutu ləğv olundu. Əvəzində Aparat rəhbərliyi yaradıldı. İdarə Heyəti üzvlərinin sayı 20-dən 40-a qədər artırıldı. Və yeni tərkib seçildi. Gözlənildiyi kimi, bir sıra funksionerlər partiyadakı yüksək statuslarını itirdi.**

Qurultayda baş verən maraqlı məqamlardan biri də 6 siyasi partiyanın YAP-a birləşməsi idi. Həmin partiyalar içərisində Azərbaycan Yurddaş Partiyası (AYP) da yer alır.

AYP-nin sədri Gülayə Səfərova partiyanın YAP-a qoşulması barədə ”Şərq”in suallarını cavablayıb:

**- AYP-nin hakim partiyaya birləşməsi hansı zərurətdən irəli gəldi?**

- YAP-a qoşulmaqla bağlı qərarımız cəmiyyətdə müsbət qarşılanıb. Mərhum sədrimiz Mais Səferli 2020-ci ilin dekabr ayında dünyasını dəyişdi. Bundan sonra fəaliyyətimizi dayandırmadıq. Çünki 2021-ci ilin mart ayında qurultayımız olmalı idi, həmin qurultaya hazırlıqlar gedirdi. Hələ müharibə ərəfəsində ölkəmizdəki birlik və həmrəyliklə bağlı çağırışlar oldu, bütün siyasi partiyalar fəaliyyətlərini dayandırıb, cənab Prezidentin rəhbərliyi altında birləşdilər. 44 günlük müharibə zamanı həmin birlik və həmrəyliyin ”dadını” gördük. Qələbəmizi şərtləndirən əsas amillərdən biri milli birlik nümayiş etdirməyimiz oldu. YAP-a qoşulmaqda məqsədimiz bu həmrəyliyi davam etdirməkdir. Cənab Prezidentin ”Biz birlikdə güclüyük!” şüarı var idi. Həmin şüara cavab olaraq YAP-ı seçdik. Çünki YAP Azərbaycanın siyasi palitrasının ən güclü və nüfuzlu partiyasıdır.

> **“Vəzifə düşkünü olsaydım, Azərbaycan Yurddaş Partiyası olaraq fəaliyyətimizi davam etdirərdik"**

**- Bundan sonra YAP-dakı fəaliyyətinizi hansı istiqamətlərdə qurmağı düşünürsüz?**

- Müharibə sona çatıb, lakin bu o demək deyil ki, iş bununla bitir. Qarşıda böyük işlərimiz var. Qələbəmizi möhkəmləndirib, genişləndirməliyik. Azad edilmiş torpaqlarımızda quruculuq işləri aparılmalıdır. Cənab Prezident YAP nümayəndələrini də bu işdə fəal olmağa çağırıb. Qayıdış proqramı çərçivəsində məcburi köçkünlərimizin doğma torpaqlarına qayıtması prosesində və sosial ədalətin gözlənilməsində, şəhid ailələrinə diqqət və qayğının göstərilməsində, gənc nəslin vətənpərvər və milli dəyərlər əsasında tərbiyə edilməsində fəal olmalıyıq.

**- YAP-dakı vəzifəniz nə olacaq?**

- Bu sualla çox qarşılaşıram desəm, yerinə düşər. Vəzifə düşkünü olsaydım, Azərbaycan Yurddaş Partiyası olaraq fəaliyyətimizi davam etdirərdik. Yəqin ki, növbəti zamanlarda bizi görüşə dəvət edəcəklər. YAP-da sıravi işdən tutmuş hansı işi versələr, bizim üçün heç bir fərqi yoxdur. Ölkəmizin rifahı üçün işlərin görülməsində cənab Prezidentin ətrafında olub fəallıq göstərsək, bu, bizə yetər.

**- YAP-a qoşularkən AYP-nin neçə üzvü var idi?**

- YAP-a birləşmək üçün nəzərdə tutulan üzv baryerini aşmışdıq. Yəni hakim partiyaya qoşulmaq üçün yetərli üzvümüz var. Fəal üzvlərimizin sayı 5 mindir.

**- Bəs, AYP üzvləri YAP-a birləşməyi necə qarşıladı?**

- Əslində təklif elə öz üzvlərimizdən gəlmişdi. Gənclər Təşkilatımız və bir sıra rayon təşkilatlarımız bu təklifi verdi. Qurultayda isə bunu səsləndirdik. Qurultay iştirakçı təklifi yekdilliklə qarşıladılar, hər kəsin ürəyincə oldu. Hər birimiz birlik və həmrəyliyin adıyıq. Bir yerdə olanda daha güclü oluruq. Buna görə də düzgün addım atdığımızı düşünürəm. Bununla siyasi həmrəylik və milli birlik modelinin əsasını qoymuş olduq. Fikrimcə, gələcəkdə belə birləşmələr yenə olacaq.

**Yeganə Bayramova**



## 248 erməni əsgərin meyiti hələ də morqdadı

### Ermənistanın Azad TV kanalı bunu laqeydlik kimi təqdim edib

**Müharibənin başa çatmasından 4 ay keçməsinə baxmayaraq, hələ də 248 erməni əsgərin meyiti morqlarda saxlanılır.**

Axar.az xəbər verir ki, bu barədə Ermənistanın Azad TV kanalı məlumat yayıb. Kanal bunu laqeydlik kimi təqdim edib.

Ermənistan Səhiyyə Nazirliyi məlumatı rəsmi olaraq təsdiqləyib.

*Qeyd edək ki, erməni axtarış qrupları Azərbaycan Ordusunun icazəsi əsasında Qarabağdakı döyüş meydanlarında axtarışlar aparır. İndiyə qədər 1499 erməni əsgərin meyiti tapılıb. Tapılan əsgər meyiti qalıqları da morqlara daşınır.*

## ABŞ Avropa Birliyi vasitəsilə İranla danışıqlar aparır

**Rəsmi Vaşinqton Avropa Birliyi vasitəsilə İranla dolayı diplomatik danışıqlar aparır və nüvə razılaşması ətrafındakı vəziyyətlə bağlı Tehranın fikirlərini gözləyir.**

APA TASS-a istinadən xəbər verir ki, bunu ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Ceyk Sallivan cümə günü keçirdiyi brifinqdə bildirib.

”İranla diplomatiya davam edir, ancaq hazırda birbaşa şəkildə deyil. Nüvə anlaşmasına riayət olunmasının vacibliyi ilə bağlı mövqeyimizi İran tərəfinə çatdırmaqda köməklik edən və onların fikirlərini öyrənən AB və digərləri vasitəsi ilə əlaqələr var. Hazırkı mərhələdə iranlıların bundan sonra necə davam etmək istədikləri ilə bağlı sonrakı fikirlərini öyrənməyə çalışırıq, ancaq bizim nöqteyi-nəzərimizdən bu, asan olmayacaq. Bununla belə, inanırıq ki, hazırda irəliləyə biləcəyimiz və yekun nəticədə məqsədimizin İranın nüvə silahı istehsalının qarşısını almaq olan və bunu diplomatiya yolu ilə təmin edə biləcəyimiz diplomatik prosesdəyik”, - Sallivan belə deyib.

## YAP-da sadəcə bioloji yenilənmə aparıldı

### İdarə heyətindən kənarlaşdırılanlar iş görmək qabiliyyətində deyildilər



**Məlum olduğu kimi, ötən günlərdə YAP-ın qurultayı keçirildi. İclasın yekunu olaraq ciddi qərarlar qəbul edildi və bir sıra ictimai-siyasi şəxslər, o cümlədən Ramiz Mehdiyev, Əli Həsənov və digər ictimai-siyasi şəxslər partiyanın idarə heyətindən kənarlaşdırıldılar.**

Onlardan biri də millət vəkili Siyavuş Novruzov idi. YAP-ın qurucularından olan deputatla əlaqə saxlayıb, məsələyə aydınlıq gətirməyə, onun haqqında səslənən iddialara işıq salmağa çalışdıq. Amma parlamentari ”Vaxtım yoxdur” deyib telefonu söndürdü.

**Biz də mövzunu Siyavuş Novruzovla dəfələrlə debata çıxan AĞ Partiya sədri Tural Abbaslı ilə davam etdirməyə çalışdıq.** O qeyd etdi ki, Partiyanın idarə heyətindən kənarlaşdırılanlar fiziki olaraq iş görmək qabiliyyətində deyildilər: ”Odur ki, məncə, bu, sadəcə bioloji yenilənmədir. Həm də kənarlaşdırılanların çoxu Veteranlar Şurasında yer alıblar. Həmin şuranın səlahiyyətləri, statusları indiyədək məlum deyil. Bəlkə də partiya daxilindəki əsas strukturlardan biri olacaq... Gənclər Birliyinə gəldikdə isə oranın üzvlərinin əksəriyyəti parlamentarilərdir. Lakin kimsə tanımır. Belə adamlar partiyaya hansı töhfə verə bilərlər?!”.

**Kənan**

# Türkiyə modelinə keçid vaxt aparacaq

## Ordunun ancaq xüsusi təyinatlı qoşundan ibarət olacağını demək doğru deyil



**Azərbaycan Ordusu ancaq XTQ-dən ibarət olacaq? - Açıqlandı**

**Məlum olduğu kimi, martın 15-dən 18-dək Azərbaycan Ordusunda qoşun (qüvvə) növlərinin cəlb edilməsi ilə əməliyyat-taktiki təlimləri keçiriləcək.**

Təlimdə 10 min nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları iştirak edəcək. Bəzi ekspertlərin fikrincə, bu, düşmənə göz dağı və ona sonuncu xəbərdarlıqdır. Eyni zamanda müxtəlif iddialarla çıxış edənlər də var. Bir çoxları düşünür ki, Azərbaycan Ordusu ancaq xüsusi təyinatlı qoşundan ibarət olacaq.

**Hərbi ekspert Ədalət Verdiyev ”Şərq”ə açıqlamasında bu iddialara cavab verdi:** ”Sözügedən təlimlər operativ-taktiki xarakter daşıyır. Bu zaman bir çox qoşun növlərinin, o cümlədən raket-artilleriya qoşunları, quru qoşunları, hava hücumundan müdafiə qoşunlarının hazırlıqları yoxlanılacaq. Belə qoşun növlərindən biri də xüsusi təyinatlı qoşundur. Amma ordumuzun birmənalı şəkildə onlardan ibarət olacağını demək doğru deyil. Bizim Türkiyə modelinə keçməyimizə isə hələ çox var. Bunun üçün gözlədiyimizdən də çox vaxt lazımdır. Qərar hələ yeni qəbul edilib və müvafiq silahların alınması, həmin silahlardan istifadə edəbiləcək ekipajın hazırlanması, struktur dəyişiklikləri heç də asan, bir-iki aylıq məsələlər deyil”.

**Kənan**






# "Mərd, səxavətli oğlumla fəxr edirəm"

## "Kaş bir körpəsi, bir nişanəsi qalaydı..."

"Fon" İnsan Resurslarının İnkişafında Dəstək İctimai Birliyinin Qarabağın sosial, iqtisadi, mədəni infrastrukturunun bərpası yönündə başlatdığı "Fon Qarabağ" hərəkatı layihəsi çərçivəsində Böyük Vətən savaşında canlarını torpağının bütövlüyü naminə fəda edən qəhrəman şəhidlərimizin ailələrini ziyarət etməkdə davam edirik. Bu dəfə birliyin üzvü Elyanə Akifqızı ilə evin yeganə övladı olan şəhid Eminin ailəsi ilə görüşmək qərarına gəldik. Əslən Cəbrayıldan olan kiçik çavuş İsmayılov Emin Tahir oğlu 21 may 2001-ci ildə Bakı şəhəri Nəsimi rayonunda anadan olub və rayonun 54 saylı orta məktəbini bitirərək həqiqi hərbi xidmətə yollanıb. Evin tək övladını şəhid vermiş ananı ziyarət etmək nə qədər çətin olsa da borcumuzu yerinə yetirməliyik. Qapını Eminin xalası Sücaət xanım açır. Sonra Məlahət anayla görüşürük. Gəlişimizə çox sevinirlər və bizi aylardır gözləyirlərmiş kimi qarşılayırlar. Söhbətimiz olduq-



ca isti, səmimi başlayır və o qədər mehriban ünsiyyət yaranır ki, artıq bir neçə saat davam edən görüşü yekunlaşdırmağa belə çətinlik çəkirik.

Emin körpə ikən atasını itirir və Məlahət xanım müxtəlif işlərdə çalışaraq oğlunu min-bir əziyyətlə təkbaşına böyütməli olur: "Uşaqlar həyətdə oynayanda Emin butulka, dəmir yığırdı, paketçi, ofisiant işləyirdi. Bir dəfə məktəbdə valideyn iclasında dedilər ki, Emin dərsdən tez çıxır. Sən demə, işləməyə gedirmiş. Dərslərini çox yaxşı oxuyurdu. Onu hazırlığa da qoymuşdum. Bir gün gəldi ki, ana, mən hazırlığa getmək, universitetə qəbul olmaq istəmirəm. Hazırlığın pulu, dörd il təhsil, geyim, yol xərcləri var. Mənə görə bu qədər əziyyətə qatlaşmağına razı ola bilmərəm. İşləyib sənə kömək edəcəm. Beləcə, doqquzuncu sinfi bitirib işləməyə başladı. Hər bir ana ilə bala arasında söz-söhbət olur. Amma Emin bir dəfə ananın üzünə ağ olmadı, haqsız olsam belə xətrimə dəymədi".

Danışdıqca Məlahət xanımın gözəl simasından yaş sel kimi axıb qara paltarının yaxasına tökülür. Sözlər, səslər boğazımda düyünlənib qalır. Nə deyəsən, necə edəsən? Yeganə övladı şəhid olan qırx yeddi yaşlı anaya hansı təsəllini verəsən? Yoxdur o təsəlli. Yoxdur o söz...

**Məlahət xanım deyir, Emin çox istiqanlı, dostcanlı idi:** "Son iş yeri maşın yuma məntəqəsi oldu. Orada çalışdığı müddətdə tək özü, anası üçün deyil, imkansız tanışları, dostları, qohumları üçün də əl tuturdu. Bir imkansız qonşu mənə Eminin onlara bazarlıq etdiyini deyəndə oğlumla daha da qürur duydum. Mərd, səxavətli oğul böyütdüyüm üçün fəxr elədim. Əsgərlikdən zəng edəndə deyirdi ki, ana, darıxma. Gəlib sənə gözəl həyat yaşadacam, səni daha əziyyət çəkməyə qoymayacam".

*Məlahət xanım danışdıqca gözlərindən yaş bulaq kimi çağlayır. Qəhər məni boğsa da, göz yaşımı gizləməyə çalışıram. Amma təkcə göz yaşımı yox, elə özümü də. Evin tək övladını itirəndən sonra yaşamağın mənasız olduğunu deyən ananın gözünün önündəcə yoxa çıxmaq istəyirəm.*

"Bir axşam gördüm ki, kiminləsə yazışır. Heç ağlıma gəlməzdi ki, Eminin istədiyi qız ola bilər. Axı, o mənim gözümdə hələ də böyüməmişdi. Əsgərliyə getməmişdən bir neçə gün qabaq dedi ki, ana, bir qız var, səni görmək istəyir. O qədər sevindim ki. Dedim, anan qurban sənə də, sənin istədiyin qıza da. Ayın 1-i hərbi xidmətə getməli idi. Həmin gün həm də mənim ad günüm olduğundan hərbi komissarlıqdan icazə aldı ki, bir yerdə qeyd edək. Sevdiyi qız da anası ilə gəlmişdi. Birbirimizə hədiyyələr almışdıq. Emin ayın üçü hərbi xidmətə getdi və məzuniyyətə gələndə bu dəfə biz qızın evinə qonaq getdik. Danışdıq, güldük. Kim bilirdi belə olacaq? Qız da, anası



## Şəhid Emin İsmayılovun ailəsi ziyarət olunub

da dəfələrlə gəlib yanıma. Mən o qıza xoşbəxtlik arzulayıram. Kaş bir körpəsi, bir nişanəsi qalaydı. Təsəllim olardı..."

**Xalası Sücaət xanımın oğlu Elvin silahdaşlarının xatirələrini bizimlə bölüşür:** "Emin həm ayağından yaralandığına, həm də evin tək övladı olduğuna görə döyüş meydanından çıxmaq əmri alsa da, geri qayıtmaqdan imtina edir. Deyirmiş ki, ayağımdan axan kişi qanıdı. Bu məsələ birdəfəlik çözülməlidir! Emin idmanla məşğul olurdu, cüssəli idi. Ona iki "Morfi" iynəsi vurulandan sonra axsaya-axsaya döyüşərək irəli gedir. Rabitəçi olaraq həm də ağır rabitə qurğusunu daşıyırmış. Adını çəkmək istəmədiyim zabit danışır ki, döyüşün qızğın yerində birdən Emin tərəfdən bərk səs gəlir. Soruşuram, deyir hər şey yaxşıdı. Amma dönüb baxanda görürəm ki, qolunu qan aparır. Buna baxmayaraq boynuna alır, deyir, yaralıların qanıdı. Elə o vəziyyətdə hər iki qoluyla hərəkət edirdi, həm qurğunu daşıyır, həm də bizə ruh



vermək üçün zarafatla "Hardasan, Paşinyan?", "Noldu, Paşinyan?" deyə-deyə döyüşürdü. Bir anlıq çiskin düşür, Emin gözdən itir. Onun getdiyi istiqamətdə olduqca ağır atışma olmuşdu. Komandiri Tağıyev Elçinin arxasınca gedir və bir daha geri qayıtmır. Emini sonuncu dəfə elə həmin 6 oktyabrdakı döyüşdə görmüşdülər..."

**Xalası Sücaət xanım danışır:** "Onun itkin xəbərini anası özünə yaxın buraxmırdı. Deyirdi, mənim oğlum şəhid ola bilər, itkin ola bilməz. 27 sentyabr döyüş başlayanda Emin yolda əsgər yoldaşlarına zarafatla deyirmiş ki, evə dönməyinə dörd ayın qalmış gedib şəhid olasan. Sanki ürəyinə damıbmış".

Məlahət ana deyir, əvvəllər yolumun üstündəki uşaq paltarları dükanına girib Eminin doğulacaq oğluna, qızına paltarlar bəyənərdim. İndi o dükanların qabağından tez keçirəm ki, görməyim.

Nur üzlü şəhid anasının gözündən yaş bulaq kimi çağlayır. Sonra oğlu haqqında hansısa xatirəni xatırlayıb gülümsəyir. Gözünün yaşını tələsik silərək daha böyük həvəslə yenə başqa bir hadisəni danışmağa çalışır. Sanki qorxur oğlu ilə bağlı hansısa məqam unudula. İstəyir maddi sıxıntı ucbatında yaşamadığı uşaqlığından tutmuş onu gördüyü son ana qədər Eminlə bağlı hər şeyi kino lenti kimi yaddaşımıza köçürsün.

*Məlahət xanım Eminin fotolarından ibarət albomları bizə göstərir. Xatirələr bitmir və biz də bu yaraşıqlı, mərd igid haqqında söhbətdən yorulmuruq. Ananı çox incitməmək üçün qalxırıq.* Amma sonra yenə nəsə düşür yadına. Bir az da ayaqda sevərək dinləyirik ananı. "Getməyin, oturun yemək hazırlayım", deyir. "Əziyyət çəkməyin", deyə qapının çıxışına yaxınlaşırıq. "Bizdən istədiyiniz bir şey varmı?", deyə soruşuruq. "Tez-tez gəlin və Emini tez-tez xatırladın", söyləyir ana. "Mütləq!", deyə söz veririk. Xalası Sücaət xanımla bir-birimizə əlaqə nömrələrimizi yazıb görüşürük. Məlahət ananın əllərindən öpüb qucaqlayıram. Nəsə demək üçün sürətli fikirləşirəm, amma deyəcək söz tapmıram. Sanki bütün sözləri yaddaşımdan silmişdilər və bayaqdan ananın hər düşən göz yaşının sinəmə saldığı közün ağrısına dözə bilməyib ağlayıram.

*İsmayılov Emin Tahir oğlu döyüş əməliyyatlarını yüksək peşəkarlıqla yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib. II Fəxri Xiyabanda dəfn edilib.*

**Uca məqamında yerin rahat, ruhun şad olsun gənc igid!**

**Feyziyyə Soltanmurad**



# Hər il ekoloji fəlakətlər baş verəcək

## "Gələcəkdə yaz və payız fəsli mövcud olmayacaq"

Mart ayı olmasına baxmayaraq, havanın temperaturu həddən çox aşağıdır. Bir neçə müddətdir ki, yağışlı qarlı hava müşahidə olunur. Qonşu ölkə Türkiyədə də bu iqlim dəyişikliyi hökm sürür. Hava şəraiti ilə bağlı meteoroloq, professor Orxan Şən açıqlama verib. Onun sözlərinə görə, artıq yaz fəsli 1 ay olacaq.

**Məsələ ilə əlaqədar "Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı "Şərq"ə danışıb:** "Belə bir proses ilk dəfə deyil. Bu, çoxdan başlayıb və hazırda da davam etməkdədir. 1853-cü ildə olan hadisə ilə indi yaşadığımız dəyişiklik eyni deyil. Burada davamlı xarakter alan iqlim dəyişməsindən söhbət gedir. Artıq isti ölkələrə qar yağır, soyuq hava şəraiti olan yerlərdə isə insanlar istinin dərəcəsindən dünyasını dəyişir. Əksər dövlətlərin hidrometeoroloji departamentləri insanları aldadır ki, hər şey iqlim normasındadır. Əslində isə bu, tamamilə səhvdir. Çünki biz özümüz bunu müşahidə edirik. Uşaqlıqdan bilirik ki, qış və yay necə keçir. Lakin son 5-10 il ərzində iqlim dəyişikliyi olduqca şiddətlənib. İnsanları aldatmaq doğru deyil. Dünyada çox təhlükəli proseslər gedir. Bununla bağlı hətta BMT-nin ekoloq qruplarının hesabatları da var. Açıq şəkildə deyilir ki, qarşıdan quraqlıq gəlir. Ümumiyyətlə, gələcəkdə yaz və payız fəsli mövcud olmayacaq. Ona görə ki, qlobal istiləşmə və qlobal soyuqlaşma paralel gedir. Növbəti illərdə ilin bir yarısı qış, digər yarısı isə yay olacaq.

Dünya ölkələrində fasiləsiz olaraq hər il dayanmadan ekoloji fəlakətlər baş verəcək. Artıq qlobal istiləşmə 3 faizə qədər qalxıb. Bu yaxınlarda bir sıra ölkələr yığışıb müzakirə etdilər ki, istiləşməni müəyyən qədər azaltsınlar. Lakin bunun qarşısını almaq qeyri-mümkündür. Bir neçə gün bundan əvvəl Antarktidada nəhəng buz parçası qoparaq ayrılıb, Artikada da eyni proses gedir. Antarktidada ümumən 1.5 dərəcə temperatur artıb. Bu, dünyada rekorddur. Tarixdə belə bir hadisə olmayıb. Sadalanan əlamətlər göstərir ki, gözümüzün önündə dünyamız dağılır. Təəssüflər olsun ki, bu vəziyyətdən çıxış yolları artıq yoxdur. Dünyanın ən məşhur alimləri belə artıq bunu etiraf edir".

**Aytac Ali**

# Ölənlərin sayı da artdı

## Bir gündə 576 nəfərdə koronavirus aşkarlanıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 576 yeni yoluxma faktı qeydə alınıb, 217 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 238 959 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 230 461 nəfər müalicə olunaraq sağalıb, 3 268 nəfər vəfat edib, aktiv xəstə sayı 5 230 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8 595, ötən müddət ərzində isə ümumilikdə 2 690 711 test aparılıb.*

# Azərbaycanda ötən il 293 gün karantin...

## 110 gün isə sərt karantin rejimi tətbiq edilib



**2020-ci ilin 366 gününün 293 günü karantin rejimi tətbiq edilib.**

Bu, Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında icmal hesabatda əksini tapıb.

*Qeyd olunub ki, bunun 110 günü sərtləşdirilmiş karantin rejimi olub.*



# "Maral əsgərimizi öldürmək istəyib"

## Deputat: "Subyektiv fikrim odur ki, xalqımıza qarşı döyüşənlərə aman verilməməlidir"

Azərbaycanda əsirlikdə olan Livan və Ermənistan vətəndaşı, snayper Maral Nacaryan Beyruta qaytarılıb. Bu barədə "Çiçəklənən Ermənistan" partiyasından olan deputat Naira Zohrabyan öz feysbuk hesabında məlumat verib.

"Maral Nacaryan bir neçə dəqiqə əvvəl Beyrutdakı evinə çatdı",- deyə o qeyd edib.

Xatırladaq ki, ötən ay Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşlarının Azərbaycanda əsirlikdə olan Livan və Ermənistan vətəndaşı, snayper Maral Nacaryanla görüşdüyünə dair məlumat yayılmışdı.

**Hadisəni "Şərq"ə dəyərləndirən millət vəkili Elman Məmmədov bildirib ki, M.Nacaryan Azərbaycan əsgərlərini öldürmək üçün ermənilər tərəfindən göndərilmişdi:** "Kimsə bizə qarşı döyüşdə iştirak edibsə, əsgərlərimizi öldürməyə gəlibsə, cəzasını almalı idi. Biz gedib həmin qadının vətənində ona qarşı döyüşməmişik. Amma gəlib bizə qarşı müqavimət göstərib, əsgərlərimizi öldürmək istəyib.

Kişi və ya qadın fərq etməz, bütün düşmənə qarşı barışmaz mövqedəyəm. Azərbaycan dövləti onun qadın olduğunu, eyni zamanda dövlətlərarası münasibətlərdə müəyyən əlaqələri nəzərə alaraq belə humanistlik nümayiş etdirib.

Dövlətin mövqeyi və siyasəti belədir. Təbii ki, dövlət siyasətimizin dəstəkləyirəm və əleyhinə deyiləm. Amma subyektiv fikrim odur ki, xalqımıza qarşı döyüşənlərə aman verilməməlidir. Həmin şəxslər məhv edilib, cəzalandırılmalıdır".

**Yeganə Bayramova**

# "Şuşaya doğru hərəkətə başlayanda halallıq istədi"

## Şəhid atası: "Döyüş yoldaşları elə şeylər danışırlar ki, heyrətlənirəm, indiyədək öz oğlumu tanımamışam"



**Vətən müharibəsi üç minə yaxın müxtəlif taleyi birləşdirdi. Şəhidlərimizin uşaqlıqları, həyat yolları, təhsilləri fərqi olsa da, son mənzilləri eyni idi - şəhadət. Onlar öz qəhrəmanlıqları ilə ən ali qata - əbədiyyətə ucaldılar. Və yəqin, indi bizi seyr edirlər.**

Bəlkə də ruhları işğaldan azad etdikləri torpaqlarda gəzir. Əlbəttə, gənc yaşında vətən uğrunda canından keçən əsgər Füzuli Həbibinin də ruhu indi şaddır. O, 1995-ci ildə Cəlilabad rayonunda dünyaya göz açıb. 2001-ci ildə orta məktəbə daxil olub. 2013-cü ildə hərbi xidmət keçib. İl yarım sonra iə tərxis edilib.

**Füzulinin bundan sonrakı şərəfli ömür yolunu isə atası Nizami bəy "Şərq"ə danışdı:** "Əvvəla, onu deyim ki, uşaqlıq illəri çox maraqlı keçib. Sakit və təvazökar idi. Hərbçi olmaq istəyirdi. Amma mən fikrindən yayındırdım. 2016-cı il Aprel döyüşlərində olduğu kimi, bu savaşda da könüllü iştirak etdi.

Onu saxlamaq qeyri-mümkün idi. Evdən necə çıxdığını da bilmədik. Kimsə ilə görüşmədi. Sadəcə mənə zəng etdi və dedi ki, anamı, nişanlımı sənə əmanət edirəm. Beləliklə, sentyabrın 29-da könüllü cəbhəyə yollandı. Deyilənə görə, ilk gündən etibarən hörmət qazanıb.

Ümumiyyətlə, döyüş yolu çox məşəqqətli keçib. Cəbrayılda, Füzulidə, Suqovuşanda vuruşub. Qubadlıda günlərlə meşədə yatıb, ac-susuz qalıb. Sonuncu dəfə oktyabrın 28-də danışdıq. Şuşa istiqamətində hərəkətə başladıqlarını dedi, halallıq istədi. Söylədiyim kimi, həmin gün son dəfə səsini eşitdim. Sonradan bildim ki, şəhid dostlarını ərazidən çıxarmaq istəyərkən özü də onların yanına-göylərə gedib... Allah seçdiyi bəndələri şəhidlik zirvəsinə qaldırarmış. Mənim oğlum da həmin zirvəni fəth etdi".

**Müsahibimiz, həmçinin övladı ilə fəxr etdiyini söylədi:** "Avqustda nişanlanmışdı. Ona elə toy edəcəkdim ki, səsi hər yerdən gəlsin. Heyif, qismət olmadı. Vətən sevgisi güc gəldi. Oğlum öz qəhrəmanlığı ilə bütün arzularının üstündən xətt çəkdi.

Lakin indi təkcə mən yox, çoxları Füzuli ilə qürur duyur. Döyüş yoldaşları elə şeylər danışırlar ki, heyrətlənirəm. Denə, indiyədək öz oğlumu tanımamışam".

**Kənan**

# S-400-lər daha dartışma mövzusu ola bilməz

**Ankara ilə Moskvanın ümumi geosiyasi maraqları var**



Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu S-400 raketləri ilə bağlı açıqlama verib. O, sözügedən silahları başqa mənbələrdən almağa məcbuq qaldıqlarını deyib: "Türkiyə müdafiə sistemlərinə ehtiyac duyduğu zamanlarda NATO ölkələrindən bu silahı almaq üçün səy göstərdi.

Təəssüf ki, NATO ölkələri müxtəlif bəhanələrlə bizə havadan müdafiə sistemi vermədi. Çox ehtiyac duyduğumuz zamanlarda NATO üzvləri Suriya sərhədində bir çox nöqtədən sistemləri geri çəkdi. Belə bir zamanda Rusiya ən yaxşı təklifi verdi və razılaşaraq S-400-ü aldıq"- deyə XİN rəhbəri bildirib. Hər iki tərəfin regionda maraqlı dövlətlər olduğunu bilirik. Bəzən birinin dediyinin digərinin "boğazından keçmədiyi də" məlumdur. Amma görünür, "S-400" əməkdaşlığı iki lideri eyni masa arxasına gətirə bilib.

**BDU-nun müəllimi, beynəlxalq məsələlər üzrə ekspert Sultan Zahidov iki ölkə arasındakı tərəfdaşlığı "Şərq"ə şərh etdi:** "Əməkdaşlıq 2015-ci ildən etibarən yüksələn xətlə davam edir. 2016-cı ildə Rusiya ilə ABŞ arasında problemlərin yaranması ilə sözügedən əməkdaşlıq daha da inkişaf etdi. Beynəlxalq aləmdə həmişə belə olur: güclü dövlətlər arasında münasibətlər pisləşəndə onlar üçüncü tərəflə partnyorluğa başlayırlar. İndi Ankara ilə Moskvanın ümumi geosiyasi maraqları var. Yadınızdadırsa, Rusiya Prezidenti Vladimir Putin Ərdoğanın sözünün üstündə durduğunu demişdi. Həqiqətən də, Türkiyə Prezidenti söylədiyi kimi də etdi: S-400-ləri aldı. Bu, tərəflər arasındakı münasibətlərin aydın təzahürüdür". **S.Zahidov, həmçinn ABŞ faktoruna da toxundu:** "Türkiyə rəsmi Vaşinqtona dəfələrlə dedi ki, münasibətlərə yenidən baxılmasının tərəfdarıdır. Amma ABŞ ancaq özünü düşünür, özünü yeganə superdövlət kimi aparır. Həmin ritorika isə, əlbəttə, qardaş ölkənin xoşuna gəlmir. Bundan sonra Türkiyə üçün hansısa problemlərin yaşanacağını düşünmürəm. Birincisi, o, artıq sözügedən silahları alıb. İkncisi isə hər bir suverən dövlətin başqa biri ilə əməkdaşlıq etmək hüququ var. Yəni Türkiyə kimdənsə icazə almalı deyil. Proseslərə təsir göstərən yeganə amil ABŞ-ın mövqeyidir. Fikrimcə, ABŞ özünü dünyanın ağası kimi aparmaqdan əl çəkməli və digər dövlətlərlə də hesablaşmalı, onların da maraqlarını nəzərə almalıdır".

**Kənan Novruzov**

## Sorğu keçirilib

### Almanlar bu vaksinə daha çox güvənir



**Almanların Avropa İttifaqı (Aİ) tərəfindən təsdiqlənmiş vaksinlərə olan inamı araşdırmalar nəticəsində açıqlanıb.**

Keçirilən bir rəy sorğusuna görə, almanlar ən çox Pfayzer, ən az AstraZeneka peyvəndinə güvənirlər.

Qeyd edək ki, "YouGov" tərəfindən 23 fevral - 2 mart tarixləri arasında aparılan araşdırmaya Almaniya, Fransa, İtaliya, İngiltərə və Amerika Birləşmiş Ştatlarından (ABŞ) 8 min nəfər qatılıb.

Bu dönəmdə Almaniyada bir tərəfdən hökumət vaksinasiyanın yavaş irəlilədiyi, digər tərəfdən də cəmiyyətdə peyvəndlərin təhlükəsizliyi ilə bağlı bir sorğunun keçirilməsi tənqid olunur.

Sözügedən sorğuya görə, almanlar ən çox BioNTex-Pfayzer peyvəndinə inanırlar. İştirakçıların yüzdə 66 faizi sözügedən peyvəndin olduğunu düşünürlər.

**Ağarza**



# Paşinyan hələ ki, hakimiyyətini qoruyur

*Ermənistan erməniləri ilə Qarabağ erməniləri arasında uçurum dərinləşir*

Ermənistan Prezidenti Armen Sarkisyan ölkənin Baş nazirini, parlament fraksiyaları liderlərini və "Vətənin xilası hərəkatı"nın nümayəndələrini martın 13-də görüşə dəvət edib.

Bu barədə dövlət başçısının mətbuat xidmətinin yaydığı məlumatda bildirilir. A.Sarkisyan qeyd edib ki, ölkədə siyasi böhran davam edir, vəziyyət gərgin olaraq qalır və bütün bunlar dövlət və dövlətçilik üçün geri dönməz nəticələrə səbəb ola bilər. Onun sözlərinə görə, bir çox problem var və bunların həlli konstitusiya və qanunvericilik daxil olmaqla təcili və sistem dəyişikliklərini tələb edir. Ermənistan prezidenti deyib ki, həm iqtidar, həm də müxalifət mövqelərini dəfələrlə ifadə etsələr də, ancaq qarşılıqlı anlaşma və görüşmək istəyi yoxdur. Vəziyyəti müzakirə etmək və aradan qaldırmaq, həll yolları tapmaq üçün prezident baş naziri, parlament fraksiyaları liderlərini və "Vətənin xilası hərəkatı"nın nümayəndələrini öz iqamətgahında görüşə dəvət edib. O, problemlərin həlli yolunun danışıqlar və dialoq olduğuna əmin olduğunu deyib.

Ermənistandankı vəziyyət göz önündədir. Prezidentlə baş nazir arasındakı ədavət vəziyyətin nə yerdə olduğunu görmək üçün kifayətdir.

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli rəsmi İrəvandakı situasiyaya dair fikirlərini "Şərq"lə bölüşdü. Onun qənaətincə, "pult" Kremlin əlindədir:** "Parlament üsul-idarəsinin belə problemləri var. Ermənistanda üçtirəlik yaranıb - bir tərəfdə prezident, bir tərəfdə baş nazir, bir tərəfdə isə baş qərargah rəisi. Paşinyan özü də prezident üsul-idarəsinin daha yaxşı olduğunu etiraf edir. Əgər Moskva maraqlı olsa, sabitlik bərpa olunacaq. Əks halda xaotik durum davam edəcək. Hər şey Paşinyanın özünü necə aparmasından asılıdır. Baş nazir Rusiyanın istədiyi kimi davranacağı təqdirdə, "sular durulacaq".

**Ə.Məmmədlinin sözlərinə görə, vəziyyət hələ ki, mövcud iqtidarın xeyrinədir:** "Onu da deməliyik ki, Rusiya heç də Ermənistan daxilindəki bütün məsələlərə nəzarət edə bilmir. Hətta Moskvanın təsiri altında olan qüvvələr də onun sözünə qulaq asmaq istəmirlər. Ermənistan erməniləri ilə Qarabağ erməniləri arasında isə uçurum var. Amma baş nazirin tərəfdarları daha çoxdur. Hər halda o, mitinqə daha çox adam çıxarır. Bu isə o deməkdir ki, Paşinyan hələ ki, hakimiyyətini qoruya bilir".

**Kənan**

# ABŞ Türkiyənin düşmənləri ilə Ankaraya təzyiq göstərir

*Yunanıstanın silahlandırılması qısa müddət üçün hazırlanan plandır*



Yunanıstan Amerika Birləşmiş Ştatları ilə birgə gözlənilmədən Aralıq dənizində təlimlər keçirəcək. Birləşmiş Ştatların regiona çox böyük hərbi kontingentlə gəldiyi də açıqlanıb. Belə ki, Yunanıstana məxsus Krit adası yaxınlığına "USS Eysenhover" aviadaşıyıcısı ilə yanaşı 22 hərbi gəmi və 5 mindən çox hərbçi cəlb olunub.

"Bütün bu embarqo və təzyiqlər qısa müddətli zaman üçün hazırlanıb. Əks halda isə Türkiyə ilə münasibətlərin uzun zaman gərgin qalması ABŞ-ın özünə ziyandır"

Sözügedən təlimlər Birləşmiş Ştatların dövlət katibi Entoni Blinkinin Türkiyəni hədəf alan açıqlamasından sonra elan olunub.

Dövlət Departamentinin yaydığı məlumatda qeyd olunur ki, Birləşmiş Ştatlar Aralıq dənizi regionunda sabitlik üçün Yunanıstanla işbirliyini davam etdirəcək. Təlimlərlə bağlı bütün təşkilati işlər Yunanıstan Dəniz Qüvvətlərinin Komandanlığı tərəfindən həyata keçirilib.

Hərbi təlimlərin gələn həftə baş tutacağı gözlənilir.

Qeyd edək ki, Yunanıstan ordusu ötən həftə başqa bir müttəfiqi olan Fransanın "Şarl de Qoll" aviadaşıyıcısı ilə Aralıq dənizində təlimlər keçirmişdi.

**Siyasi analitik Turab Rzayev "Şərq"ə bildirdi ki, bu güc göstərisi Amerikanın Türkiyədən tələblərinə görə etdiyi addımdır:** "Amerika Birləşmiş Ştatlarının (ABŞ) Türkiyədən bir neçə tələbi var. Bu tələblər, əsasən, Türkiyəni Rusiyadan S-400 silahını almaqdan imtina etdirməkdir. Rusiya ilə əməkdaşlığın kəsilməsi, onlara sanksiyaların tətbiq edilməsi də bu tələblərdəndir.

Digər məsələ isə Amerikanın yaxın şərqdə, xüsusilə də Suriyada keçirdiyi siyasətə uyğun davranmaqdır. Yəni ABŞ terror təşkilatları olan PKK və YPG-yə verdiyi silahlar, onların təşkilatlandırılmasına göz yummaq.

Həm də onlar Türkiyənin hərbi cəhətdən güclənib Fransa, Yunanıstan və digər ölkələrə də təzyiq göstərməsindən narahatdırlar. Ona görə də Türkiyəni hansısa şəkildə cəzalandırmaq qərarına gəliblər".

**T.Rzayev hesab edir ki, Türkiyəyə qarşı yönəlmiş təzyiqlər, onun düşmənləri ilə müttəfiqlik edilməsi və siyasi təzyiqlər qısa müddət üçün hazırlanmış plandır:** "Güman edirəm ki, bütün bu embarqo və təzyiqlər qısa müddətli zaman üçün hazırlanıb. Əks halda isə Türkiyə ilə münasibətlərin uzun zaman gərgin qalması ABŞ-ın özünə ziyandır. Çünki Amerika Türkiyə olmadan yaxın şərqdə, şimali Afrika və Aralıq dənizi sahillərində öz istəklərinə nail ola bilməyəcəklər. Ona görə də mən hesab edirəm ki, onlar yaxın zamanda Türkiyənin real dəyərini anlayacaqlar.

Bu yaxınlarda Ərdoğan Putinlə videobağlantı ilə görüşdü. Bu da Amerikanın qıcığına səbəb ola bilər. Bu, həm də Türkiyənin bir mesajı ola bilər ki, əgər bizi divara sıxışdırsanız, biz də divarın o tərəfinə keçə bilərik.

Amma mən düşünürəm ki, Amerika ilə Türkiyə yaxın zamanda ortaq məxrəcə gələ biləcəklər. Düşünürəm ki, onların bir-biri ilə əməkdaşlıqdan başqa yolları olmayacaq. Onlar bunu nə qədər tez anlasalar o qədər daha az itkiyə məruz qalarlar".

**Ağarza Elçinoğlu**

# İctimai və dövlət maraqlarının müdafiəsi



# Keçmiş məcburi köçkünlər sorğuya cəlb olunub

## Qarabağa dönəcək insanların rəy və təklifləri öyrənilir

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi və şanlı ordumuzun rəşadəti sayəsində dövlət və xalq qarşısında ən vacib məsələ həll edildi - torpaqlarımız işğaldan azad olundu. Bunun məntiqi davamı olaraq hazırda qayıdış mərhələsindəyik. İşğaldan azad edilmiş torpaqlara qayıdış planı hazırlanıb, buna uyğun olaraq da iqtisadi və sosial layihələr icra edilir. Hazırkı mərhələdə qarşıda duran ən vacib məsələ işğaldan azad edilmiş ərazilərin bərpası və 30 ilə yaxın bir müddətdə yurd-yuva həsrəti ilə yaşayan, "məcburi köçkün adını" daşıyan vətəndaşlarımızın doğma torpaqlara qayıdışına qısa zamanda nail olmaqdır.

Qayıdışa hazırlıq və prosesin səmərəli şəkildə təşkili üçün repatriasiya potensialını mümkün qədər dəqiq proqnozlaşdırmaq tələb olunur. Bu məqsədlə də məcburi köçkünlərin istək, niyyət və təkliflərini öyrənmək vacibdir. Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə yaradılmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı" nəzdindəki İdarələrarası Mərkəzin "Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupu" yerli və xarici mütəxəssisləri cəlb etməklə sistemli araşdırmalar aparır.

Həmin araşdırmalardan biri də ADA Universitetində aparılan "Azərbaycanın post-konflikt ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və effektiv təşkili üzrə təkliflərin hazırlanması" adlı tədqiqat işidir.

### Keçmiş köçkünlərin istək və tələbatları öyrənilir

Prezidentin sərəncamından irəli gələrək tədqiqat çərçivəsində bir neçə sosioloji sorğu keçirilməsi planlaşdırılıb. Onların birincisi - internet üzərindən keçirilən onlayn-sorğudur. Bu sorğu dövlət sifarişi əsasında, müstəqil qrup kimi fəaliyyət göstərən və bir neçə elmi-tədqiqat və təhsil müəssisəsinin mütəxəssislərindən ibarət olan alimlər tərəfindən keçirilir. Sorğu iştirakçılarının şəxsi məlumatlarının və verdikləri cavabların konfidensiallığına tam zəmanət verilir. Sorğuya fevral ayından etibarən başlanılıb və aprel ayınadək davam edəcəyi gözlənilir. Onlayn sorğu sistemi hazırda açıqdır, yəni keçmiş məcburi köçkünlər sorğu sualları istənilən vaxt cavablandıra bilər. Sorğu anketinin doldurulması cəmi 5-6 dəqiqə vaxt aparır. Sorğunun internet ünvanı da qeyd edilir. Sorğuda iştirak etmək üçün məcburi köçkünlərin tps://sorgu.ada.edu.az ünvanına daxil olmaları kifayətdir. Onu da qeyd edək ki, keçmiş köçkünlər arasında sorğu yalnız internet üzərindən, onlayn qaydada aparılmır. Keçmiş köçkünlər arasında internet imkanlarından istifadə edə bilməyən təbəqənin də olduğu nəzərə alınaraq telefon bağlantısı da yaradılıb, onların rəyi, istəkləri, ehtiyacları, tələbatları öyrənilir.

Tədqiqat Qrupu məcburi köçkünləri bu sorğuda fəal iştirak etməyə, suallara səmimi cavab verməyə çağırıb. Bu sorğu da buna bənzər digər araşdırmalar da Qarabağa qayıdacaq həmvətənlərimizin rəy və təkliflərini nəzərə almaq üçündür.

## Qayıdışın səmərəli təşkili bu bilgilərdən çox asılı olacaq

### Keçmiş köçkünlər bərpa prosesində iştiraka can atır

Bundan sonra məcburi köçkün və qaçqınlar üçün yeni evlər, qəsəbələr, yaşayış kompleksləri Dağlıq Qarabağda salınacaq. Qayıdış planı ilə bağlı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov isə bildirib ki, keçmiş köçkünlərin qayıdışı yüksək səviyyədə təmin olunacaq, məcburi köçkünlər üçün dünənədək Bakıda, ətraf qəsəbələrdə, bölgələrdə salınan yeni yaşayış massivlərinin ünvanı artıq Qarabağ olacaq.

Sədr müavini qeyd edib ki, Vətən müharibəsində qazanılan qələbə köçkünlərimizi doğma yurd-yuvalarına qaytardı. Müharibədən sonra işğaldan azad olunmuş torpaqlara könüllü qayıdışla bağlı keçmiş köçkünlər tərəfindən yüzlərlə, minlərlə müraciət daxil olur. Bu müraciətlər müxtəlif beynəlxalq təşkilatların kürsülərində səsləndirilib. Bu müraciətlərdə keçmiş köçkünlər işğaldan azad edilmiş torpaqlarda bərpa işlərində də iştirak etmək istədiklərini bildirir.

Sədr müavini Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə qayıdıb-qayıtmamaqla bağlı məcburi köçkünlər arasında sorğu keçirilməsi ilə bağlı tapşırığına da toxunub: "Son 25-30 il ərzində məcburi köçkünlər və qaçqınlar arasında həm beynəlxalq təşkilatlar, həm QHT, həm də müxtəlif xarici beynəlxalq təsisatlar, özəl şirkətlər, bu yaxınlarda isə Sosial Təhqiqatlar Mərkəzi tərəfindən belə sorğular aparılıb. Bu sorğuların yekdil nəticəsi bundan ibarətdir ki, keçmiş köçkünlərin mütləq əksəriyyəti öz doğma torpaqlarına qayıtmaq niyyətindədir. Ölkə Prezidentinin qərarının məqsədi keçmiş məcburi köçkün və qaçqınlar arasında hərtərəfli, genişmiqyaslı sorğu keçirilməsidir. Bununla bağlı artıq tapşırıqlar verilib. Dövlət Komitəsi olaraq sorğunun anketinə daxil olacaq suallar üzərində iş aparılır. Bu sorğu böyük sosioloji tədqiqatın predmetidir. Əsas məqsəd bir tərəfdən keçmiş köçkün soydaşlarımızın niyyətini öyrənməkdirsə, digər məqsəd işğaldan azad olunmuş hər bir məntəqə üzrə keçmiş köçkünlər üçün sosial iqtisadi profil yaratmaqdır.

F.Hüseynov bildirib ki, Azərbaycan dövləti tərəfindən işğaldan azad edilmiş torpaqlarda ən yüksək səviyyədə şərait yaradılacaq: "Bu, həm daimi məskunlaşma, həm məşğulluq, həm səhiyyə, həm təhsil, həm də digər sosial məsələlər baxımından olduqca aktualdır. Prezidentin çıxışına istinad edərək bildirmək istərdim ki, məcburi köçkünlərdən qayıtmaqla bağlı səmimi cavab verməsi xahiş olunur.

### Gənclərin peşə bacarığına yiyələnməsi vacibdir

Qeyd edək ki, bir müddət əvvəl Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən elan edilən "Sosial layihələr" müsabiqəsi çərçivəsində qalib elan edilən "Məcburi köçkünlərin məşğulluq imkanlarının artırılması" layihəsi icra edilib. Layihənin məqsədi Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan didərgin düşmüş məcburi köçkünlərin məşğulluq imkanlarının artırılması vasitəsilə Azərbaycan Hökumətinin bu sahədə həyata keçirdiyi dövlət siyasətinə dəstəyin göstərilməsidir.

Layihənin hədəf qruplarına aid edilən "Qobu Park-1" və "Qobu Park-2" yaşayış komplekslərində məskunlaşmış məcburi köçkün gənclərinin məşğulluq imkanlarının artırılması üçün layihənin birinci mərhələsində hədəf qrupları arasında sorğu keçirilib, həmin sorğuların nəticələrinə əsasən təlim istiqamətləri və bu peşə təlimlərində iştirak edəcək şəxslər müəyyən olunub. Cari ilin 06 oktyabr tarixindən layihə çərçivəsində "Kompüter operatoru", "Əməliyyatçı-mühasib" və "Vizajist" peşələri üzrə təlimlərin keçirilməsinə başlanılıb. Ümumilikdə, təlim prosesində 44 nəfər iştirak edib. Layihə gənclər arasında məşğulluğun təmin edilməsinə kömək edəcək. Peşə bacarığı əldə edən gənclər öz doğma yurdlarında işlə təmin ediləcək. Müasir dövrün tələbləri nəzərə alınmaqla gənclərin müasir peşələrə yiyələnməsi vacibdir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### "Gənclər indidən kənd təsərrüfatı ixtisaslarına yiyələnsin"

**Qayıdışla bağlı fikirlərini "Şərq"lə bölüşən Jurnalist Araşdırmaları Mərkəzinin sədri, "Yeni Sabah" informasiya saytının baş redaktoru, əslən Cəbrayılın Soltanlı kəndindən olan Seymur Verdizadə böyük qayıdışla əlaqədar yaxın 5 ildə kənd təsərrüfatı ixtisaslarına böyük tələbat olacağını dedi:**

- Keçmiş köçkünlər arasında onlayn sorğunun hansı məqsədlə keçirildiyi məlumdur. Bu, lazımlı, gərəkli işdir. Dövlət köçkün ailələrin tərkibini, keçmiş köçkünlər arasında əmək qabiliyyətli olanların sayını, onların hansı peşələrdə, hansı sahələr üzrə çalışdığını, hansı ixtisaslar üzrə mütəxəssislər olduğunu bilməlidir. Qayıdışın səmərəli təşkili bu bilgilərdən çox asılı olacaq. Bu proses elə aparılmalıdır ki, dövlət maraqları da təmin edilsin, vətəndaş maraqları da. Sabah, birisigün doğma yurduna qayıdan vətəndaş işsiz qalmasın, maddi cəhətdən özünü təmin edəcək səviyyədə olsun. Bu sorğular, aparılan statistika, öyrənilən rəylər işğaldan azad edilmiş ərazilərdə hansı müəssisələrin, hansı iş yerlərinin açılmasının zəruriliyi üçün əsas məlumat bazasını təşkil edəcək. Şəxsən mən təklif edirəm ki, orta məktəbi bitirmək üzrə olan gənclərimiz ixtisas seçərkən Azərbaycanın gələcəyini və paralel olaraq öz gələcəklərini düşünsünlər. Azərbaycan böyük Qələbə nəticəsində həm də geniş torpaq sahələri əldə etdi. Bu torpaqlarda sabah iri təsərrüfatlar yaranacaq. Məsləhətlidir ki, gənclərimiz aqronom, zootexnik, baytar, bitkiçilik üzrə ixtisaslara yiyələnsinlər. Çünki yaxın illərdə bu ixtisaslara böyük tələbat olacaq. Niyə hamı həkim, hüquqşünas olmağa can atır? Gözəl Qarabağımızda ixtisaslı aqronim və ya zootexnik yeri gələndə həkimdən də, hüquqşünasdan da üstün olacaq. Valideynlər də indidən övladlarını doğru yola yönəltsinlər. Bir rayonda uzaqbaşı 1, ya 2 bank olacaq. Kəndlərdə də isə bankomatlar quraşdırılacaq, uzaqbaşı hansısa bankın filialı fəaliyyət göstərəcək. Hazırda mənim 3 qohumum paytaxtda bank işində çalışır. Onların doğma yurdlarında eyni işlə təmin edilməsi çətin ola bilər. Bəlkə də mümkün olacaq, tələbat az olan ixtisaslarda çalışanlar uyğun gələn ixtisaslar üzrə digər işlə təmin ediləcəklər. Amma dediyim budur ki, gənclər ölkəmizin gələcəyinə açıq gözlə baxsınlar və istiqamətlərini düzgün müəyyənləşdirsinlər. Bəzən məndən də soruşurlar ki, kənddə iş tapa biləcəksən?! Cavab verirəm ki, niyə tapmıram? Kənddə böyümüşəm, istənilən işdə çalışa bilərəm. Kəndimiz işğaldan azad olunanda bildirdim ki, kəndə ilk qayıdanlardan biri mən olacam. Amma bəzən xoşagəlməz fikirlərin səsləndiyini də görürəm. Guya ki, keçmiş köçkünlər yurdlarına qayıtmağa həvəs göstərmir. Xahiş edirəm ki, qayıdış məsələsini köçkünlər üzərində mənəvi basqıya çevirməsinlər. Ayrı-ayrı adamlar vəziyyətdən sui-istifadə edib cəmiyyətdə təbəqələri üz-üzə qoymağa cəhd etməsinlər. Biz kiminsə təsiri olmadan da qayıdacağıq. Hamı da qayıtmaq istəyir. Heç kim doğma yurdunu, ev-eşiyini könüllü atıb gəlməyib, paytaxta. Burda məskunlaşdığımız ev, mənzillər kənddəki evlərimizin, həyətlərimizin heç 100-də 1-i deyil. Şəxsən mən kənddə bostan əkməyi burda kimdənsə müsahibə almaqdan üstün tuturam.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Əsəblərinizi bir daha qoruyun!

## Boş yerə siqnal verənlər cərimələnəcək

Son zamanlar paytaxt küçələrində intensiv hərəkət müşahidə olunur. Günün pik saatlarında şəhərin mərkəzi küçə və prospektlərində yaranan sıxlıq səbəbindən sürücülər lüzumsuz olaraq səs siqnallarından istifadə edirlər. Bu hal paytaxt sakinlərinin haqlı narazılığına səbəb olur. Ötən gün bu barədə Bakı şəhər Dövlət Yol Polisi İdarəsi sürücülərə xəbərdarlıq edib.

Bildirilib ki, ”Sürücülərimiz onu bilməlidir ki, ”Yol Hərəkəti Haqqında” qanunun tələbləri çərçivəsində səs siqnalları yaşayış məntəqələrində yalnız yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə istifadə oluna bilər. Əks təqdirdə, bu hal inzibati xəta tərkibi yaradır və sürücülər İnzibati Xətalar Məcəlləsinin 329.3-cü maddəsinə əsasən cərimə oluna bilərlər”. *Lüzumsuz siqnal verən sürücülərin cərimələnməsi ilə bağlı ”Şərq”olaraq vətəndaşlar arasında sorğu keçirdik. Həmin sorğunu təqdim edirik:*



## Cəmiyyətin reaksiyası fərqlidir, hətta "pul tələsidir" deyənlər var

**Lüzumsuz siqnal verən sürücülər barədə danışan Xəyal Namizədli bildirib ki, bu məsələdə o, DYP-ni dəstəkləyir:** ” Çünki boş yerə verilən siqnal yoldan keçən hansısa ürək xəstəsinin səhhətinə pis təsir edə bilər. Həmçinin bu lüzumsuz siqnallar məktəblərdə aparılan dərslərə də mane olur. Qeyd edim ki, siqnalın mahiyyətini əksər sürücülər bilmir. Siqnal ilk növbədə yol-nəqliyyat hadisələrinin qarşısını almaq üçündür. Yoxsa bizdə kimsə 0,1 saniyə işıqforun yaşıl işığından gec tərpənən kimi siqnal verir, yaxud da ki, piyada keçidi yavaş keçir. Hesab edirəm ki, ilk olaraq sürücülərdə yol mədəniyyəti olmalıdır. Fikrimcə, bu qanunun icrası insanlarda yol mədəniyyəti formalaşdıracaq.

Çünki qonşu Rusiyada, ümumiyyətlə, siqnal səsi eşitmək mümkün deyil. Yüzdə bir olar ki, eşidərsən. Orada yol mədəniyyəti Azərbaycana nisbətən daha yüksək səviyyədədir. Elə insanlar var ki, həqiqətən də siqnal verib adamın əsəbinə toxunur”.

Hətta məhəllələrarası yollarda da. Hesab edirəm ki, belə bir cərimə yerə tüpürənlərə və hara gəldi zibil atanlara da tətbiq olunsa yaxşı olar. Çünki o zaman şəhər küçələrimiz təmiz olar”.

**Yavər Məmmədov isə verilən bu qərarı düzgün hesab etmir:** ”Bu qərara qarşıyam. Ona görə ki, hökumət bunu sürücü mədəniyyəti üçün etmir. Bu cərimə tətbiq olunmamışdan öncə sürücülük vəsiqəsinin daha çətin şərtlərlə verilməsinin tərəfdarıyam. Bəzi işbazlar var ki, sürə bilənə də, bilməyənə də sürücülük vəsiqəsi verir. Təbii ki, nəticədə sürə bilməyən sürücü siqnalın nə olduğunu haradan biləcək? Ona görə də bu qərarla razı deyiləm. İkinci bir məsələ isə yığılan pulların hara və kimlərə gedəcəyidir. Əgər bu cərimələrdən yığılan pullar uşaqpuluna və ya başqa lazımi sahələrə yönəlsə, bunu müsbət qarşılayaram. Amma bir məsələ var. O yollarda gərəksiz tıxac və ya sıxlıq yaranan zaman YPX əməkdaşları niyə gözə dəymir? Niyə həmin əməkdaşlar küncdə, dalanda dayanıb cərimələyəcək sürücü güdürlər? Güdmək əvəzinə yolu boşaltmağa köməklik etsə, yaxşı olmazmı? Bunu da arada özlərinə sual versinlər. Hesab edirəm ki, o zaman nə tıxac, nə də ki cərimə olar. Yüz maşın dayanır tıxacda. Necə sübut edəcəklər ki, hansı siqnal verir? Yolda bir maşın olsa aydındır, amma çoxdursa, sürücü özü boynuna almasa, çətin bu cəriməni tətbiq edə bilərlər ”.

**İlqar Bədəlov deyir ki, siqnal səsləri insanların haqsızlığa qarşı qışqırtısıdır:** ”Camaat bezib hər şeydən. Siqnalı da çarəsizlikdən, hirsindən verir. Siqnal haqqın səsini eşidin deməkdir. Yəni artıq bir ildən çoxdur ki, pandemiyadır. İnsanların maddi durumu pis vəziyyətdədir. Hesab edirəm ki, heç kim xoşluqdan siqnala əl atmır. Bu ölkədə bir çox insanların psixoloji durumunun gərgin olmasından xəbər verir. Hesab edirəm ki, belə cərimələrin tətbiqindənsə, insanlara bir çox sahələrdə köməkliklər göstərilsin. Yoxsa, 3 gün sonra sms gələcək ki, filan prospektdə siqnal vermisiniz. Necə sübut edəcəyik ki, verməmişik. Nəticədə insanlara çox zaman boş-boşuna cərimələr gələcək və isbatı isə qeyri-mümkün olacaq. Yolları genişləndirib tıxacın qarşısını almaq lazımdır, nəinki gündə yeni binaları inşa edib şəhəri daraldırlar. Düzdür, elə insanlar var ki, həqiqətən də siqnal verib adamın əsəbinə toxunur”.

**Şaiq Çələbi isə hesab edir ki, siqnallara cərimə tətbiqi düzgün deyil:** ”Dəfələrlə siqnal məni və yaxınlarımı ağır qəzadan qurtarıb. Sürücülərin başları çox vaxt telefona qarışır. Nəticə isə ağır olur. Ona görə də bu qərarı düzgün hesab etmirəm. Əslində dayanacaqlarda dayanan taksi və digər maşınları cərimələmək lazımdır. Bundan başqa piyada keçidlərində maşın saxlayanları cərimələməlidirlər. Yaşayış ərazilərində sürət həddini aşanları cərimələmək lazımdır. Bəzi yaşayış sahələrinə sürət həddi nişanı ilə təchiz olunmayıb və işıqforlar görünməz vəziyyətdir. Bax, bunlara görə aidiyyəti orqanları cərimələmək lazımdır. Məsələn, yol polisi Babək prospektinin aşağı hissəsini bağlayır. Bu isə süni tıxaca səbəb olur. Və camaat da haqlı olaraq siqnal verir. Gəlin, hamını cərimələyin. Niyə yol ayrıcılarının hamısında yol polisləri durub hərəkəti tənzimləmirlər? Axı onların işi bilavasitə onunla bağlıdır. Onlar gözləyir ki, qəza olsun, cərimə yazsınlar. Mən gecikməsəm vaxtım itməsə, dəliyəm siqnal verim?

Yusif Əli deyir ki, siqnal verməmək üçün yol, sürücülük mədəniyyəti olmalıdır: ”Biz siqnalı qəflətən öz zolağından çıxan sürücülərdən başqa heç kəsə istifadə etmirik. Qəzaların əsas səbəbi zolağı ”pavarotnik”siz tərk edənlərdir. Bax, onları 100000 manat cərimə edin!”.

**Sabir Mehdiyev bunun çox gözəl bir qərar olduğunu bildirib:** ”Sürücülərin çoxu siqnalın üstündə yatırlar. Daha fikirləşmirlər ki, bəzisinin evində yatanı, bəzisinin körpəsi, bəzisinin də xəstəsi var. İnanın ki, həmin adamların evinin qarşısında yüngülcə səs olanda qırğın qoparırlar. Hesab edirəm ki, insanların hüquqlarının təminatı üçün bu qərar çox yaxşı oldu. Bəlkə o siqnala həvəskar olan sürücülər cəriməyə görə daha ”mədəniyyət”lərini nümayiş etdirməzlər. Bu cərimə qanunda var idi. Təəssüf ki, yerinə yetirilmirdi. Əsasən gecə vaxtları çınqıl daşıyan iri həcmli yük maşınları yol kənarındakı təkər təmirində işləyən işçilərə yüksək siqnalla salam verib keçirlər. Ona görə də bunun tətbiqi labüddür”.

**Aynurə Pənahqızı**

# Vaksin böyük müdafiə sistemi deyil

## Peyvəndlənmədən sonra yoluxma riski qalır



**Son vaxtlar koronavirus əleyhinə peyvəndlə bağlı şübhələr yaranmaqdadır. Belə ki, artıq vaksin olunanlar da yenidən COVİD-19-a yoluxurlar.**

Məsələn, Azərbaycan Xalq Partiyasının sədri, keçmiş baş nazir Pənah Hüseyn bir müddət əvvəl peyvənd olunmağına rəğmən, virusdan yan keçə bilməyib. Yaxşı, əgər belədirsə, daha vaksin nəyə lazımdır? Dünya alimləri aylardır elə bunun üçün çalışırdılar?..

**Həkim Zəlimxan Məmmədli paradoksal durumla bağlı fikirlərini ”Şərq”ə bildirdi. O, belə halları normal hesab edir:** ”Peyvənd orqanizmdə xəstəliyin gizli, belə demək mümkünsə, ”sakit” formasını yaradır. Beləliklə, antitellər əmələ gəlir. Ümumiyyətlə, vaksini böyük müdafiə sistemi kimi qəbul etmək yanlışdır. Yəni belə hallar da ola bilər və tam təbiidir”.

**Kənan**

# “Hələ də qorxu ilə yaşayırıq”

## Qarabağa qayıdan erməni ümidsizdir

Müharibədən sonra Rusiya sülhməramlıları tərəfindən Xankəndiyə qaytarılan ermənilər qorxu ilə yaşayır.

Publika.az xəbər verir ki, Xankəndiyə qayıdan erməni qadın Anaida Ayrapetyan əhval-ruhiyyənin çox mənfi olduğunu deyib:



”Müharibədən sonra Xankəndiyə qayıdanda həyat donmuşdu, yalnız dekabrın 1-də işə çağırılanda bir qədər canlanma oldu. Lakin insanların ümumiyyətlə əhval-ruhiyyəsi yoxdur, üstəlik hələ də qorxu ilə yaşayırıq. Küçələrdə çox az insan var, axşam 9-dan sonra nəqliyyat işləmir, qaranlıq düşən kimi hər kəs evə gedir”, - deyir.

Erməni qadın qeyd edir ki, müharibədən sonra həm Ermənistanda, həm də Qarabağda yaşamaq çox bahalaşıb:

”Qiymətlər dəhşətlidir. Əvvəllər 550 dram olan yağ indi 1020-1100 dramdır. Evsizlər çoxdur. Bələdiyyənin qarşısında yardım almaq istəyənlərin növbəsi çox dəhşətlidir. Nəqliyyat işləyir, lakin əvvəlki marşrutlar dəyişib”.

**A.Ayrapetyan Azərbaycan əsgərlərinin Xankəndidə supermarketlərə gəldiyi haqda söhbətlərin olduğunu deyir:** ”Rastlaşmamışam, lakin bu haqda danışırlar”.

O, müharibədən sonra geri qayıdan ermənilərin qeyri-müəyyən əhvalda olduğunu qeyd edib:

”İnsanlar nəsə etmək, hətta işləmək belə istəmir. Qeyri-müəyyənlik var. İnsanlar ümidsiz haldadır. Əvvəllər kəndlərdə yaşayanlar torpaqda işləmək istəyirlər, amma işləmələri üçün torpaq varmı?! Müharibə bitib, lakin yenidən başlaması haqda söz-söhbətlər gəzir. Hətta müxtəlif tarixlər haqda da danışırlar: ayın 12-si, yaxud 16-sı və s. Vəziyyət qeyri-müəyyəndir”.

*A.Ayrapetyanın sözləri Qarabağa qaytarılan ermənilərin burada yaşamaq istəmədiklərini təsdiqləyir. Onlar üçün həyat perspektivi yalnız Azərbaycan vətəndaşlığı altında yaşamaqdır, təbii ki, seçim özlərinindir:* ya Azərbaycan vətəndaşı olaraq yaxşı şəraitdə yaşayacaq, ya da Ermənistana gedəcəklər.

# Şuşanın bulaqları da bir tarixdir

*Azərbaycanın qədim mədəniyyət abidəsi, Prezident İlham Əliyevin "oranı azad etməsək işimiz yarımçıq qalar" dediyi möhtəşəm Şuşa sirli tarixi ilə hələ də bir çoxumuzu heyrətləndirir. Şuşa yazarın yazdıqca yazmaq istədiyi, tarixçinin araşdırdıqca yeni faktlar üzə çıxardığı işıqlı dünyanın yerüstü bir cənnətidir.*

## "Şuşaya ilk bulağı Xan qızı Natəvan saxsı borularla çəkib"



Qarabağın sıldırımlar üzərində qurulan daş-qaşlı tacı elə bir yerdir ki, sirrini yadlara deməz. Həqiqətən də bu bir faktdır ki, oranın həbsxanasında çalışan rəhbər şəxs belə öz işlədiyi yeri araşdırsa da nə sirrini bilib, nə də tarixini.

İndiyə qədər Şuşa şəhəri haqqında qaranlıq qalan məqamlardan biri də oranın məşhur bulaqlarıdır ki, nə tarixi, nə də sahibi haqqında məlumatımız var.

Əksinə, olan bir-iki məlumat da saxta tarixçilərin uydurduğu dezinformasiyadan başqa bir şey deyil.

İsa bulağı, Xan Qızı, Köçərli, Mamay bulağı, Meydan bulağı, Novlu bulaq, Şor bulaq, Çuxur məhəllə bulağı, Yusifli bulağı, Çöl qala bulağı, Xoca Mərcanlı bulağı, Seyidli bulağı, Səkili bulağı, Qotur bulağı və s. və i. hələ də bizə məlum olmayan Şuşa bulaqları silsiləsi mövcuddur.

**"Şərq" Şuşa bulaqlarının tarixini oxucularımız üçün araşdırmaq qərarına gəldi. Bunun üçün şuşalı tarixçi, "Şuşa" qəzetinin baş redaktoru Vasif Quliyevə müraciət etdik. Tarixçi "Şərq"ə danışarkən vurğuladı ki, Şuşada ilk bulaq Şuşa şəhər kimi salınandan təxminən 125 il sonra ərsəyə gəlib:** "1873-cü ilə qədər Şuşada bir dənə də olsun bulaq olmayıb. 120 ildən çox müddət ərzində içməli su da olmayıb. Şuşanın hər iki tərəfindən çay axır. Müxtəlif vasitələrlə həmin çaylardan su gətirib həm təsərrüfatda, həm də içmək üçün istifadə edilirdi. Şuşanın özündə su olmasa da onun hər iki yanından axan çaydan suyu tuluqlara doldurub gətirib şəhərdə satırdılar. Şuşaya ilk bulağı isə Xan qızı Natəvan saxsı borularla çəkib. Məşhur "Xan Qızı" bulağı var, söhbət həmin o bulaqdan gedir. Xurşidbanu Natəvan həmin bulağın çəkilməsi üçün yüz min qızıl pul xərcləyib. Həmin bulaq bizim Şuşadakı evimizin üst tərəfində yerləşir. Həmin bulağın suyu 30 kilometrdən də uzaqda yerləşən dağlardan çəkilib Şuşaya gətirilib.

Dağlardan gələn su Şuşada sanatoriyanın üstündə çənə yığılırdı. Xurşidbanu xanım öz malikanəsinə bulaq çəkməzdən öncə ilk bulaq suyunu Qazançesos kilsəsinin önünə çəkdirdi".

Qeyd edək ki, Qazançesos kilsəsi Naxçıvanın Culfa rayonunda yarı erməni kənd olan Qazançılar kəndindən gələn ermənilərin Şuşadakı məhəlləsində yerləşirdi. Həmin məhəllə də onların gəldikləri yerin adına görə Qazançılar məhəlləsi adlandırılıb, kilsə də orada onlara görə tikilmişdi və adı da onlara uyğunlaşdırılıb Qazançesos adlandırılmışdı. Kilsəni Çar Rusiyası öz vəsaiti hesabına tiksə də, o, katolik yox, provoslav kilsəsi formasında idi. Hər necə olsa da hər ikisi xristianlığa xidmət edir və oradakı ermənilər də rusların Qarabağdakı əsas dayaqları idi.

**Tarixçi V.Quliyev X.Natəvanın niyə öncə kilsəyə bulaq çəkdirməsinin izahını verdi:** "Düşünürdü ki, ora kilsə də olsa dini yerdir, həm də ermənilər orada qonaqdır. Bu səbəbdən də heç öz evinə su çəkdirməmiş bulağı kilsənin önünə çəkdirdi. Daha sonra isə dağlardan çəkilən həmin bulaqdan bir qol da öz xanədanına gətizdirir".

"Şuşa" qəzetinin baş redaktoru sonradan çəkilən bulaqların borularında Azərbaycan adları ilə yanaşı erməni adlarının da yazılmasının niyəsini açıqlayarkən bildirdi ki, həmin bulaqların tarixi 1899, 1900 və 1901-ci illərə aiddir: "Qeyd etdiyim dövrdə Şuşada əvvəllər Rusiyada yaşayan erməni bir milyoner var idi. Onun məndə vəsiyyətnaməsi də qalıb. Həmin o adam düşünüb ki, Xan qızı Natəvan hörmət əlaməti olaraq bizim kilsəyə bulaq çəkdirib. Həmin bulaq vasitəsi ilə nə qədər erməni susuzluqdan xilas olub. Dediyim o milyoner ermənінin qəbri indi də həmin Qaqzançesos kilsəsinin ərazisindədir. O, Xurşidbanunun bu alicənablığını nəzərə alaraq azərbaycanlılar yaşayan digər məhəllələrə su gətirir. Amma erməni elə hər yerdə ermənidir. İndi bu ermənidir deyə yaxşı sayılmır. Ermənінin yaxşısıpisi yoxdur. Baxmayaraq ki, Natəvanın həmin alicənablığını qiymətləndirə bilib, amma yenə də öz erməni xislətindən əl çəkməyib. Belə ki, o, həmin bulaqların üzərinə onu kimin çəkdirdiyini ərəb hərfləri ilə həm Azərbaycan, həm də erməncə yazdırıb.

Amma o bulaqlar Şuşada çox az saydadır.

Şuşada hər məhəllənin öz bulağı olub. Məsələn, qədim bulaqlardan biri də məşhur Mehmandarovların çəkdirdiyi "Mehmandarov" bulağıdır. Yeni məhəllədədir o bulaq.

Bulağın üzərində köhnə əlifba ilə bu sözlər yazılıb: "Bismillahir Rəhmanir Rəhim... Bu su bulağının axması və bu su anbarının təmiri (tikintisi) Mustafa bəy və cənab Qasım bəy Mehmandarzadələrin yadigarıdır. 1899-cu il".

Yəni əvvəlcə Şuşa şəhərinə ilk bulağı Pənahəli xanın oranı şəhər kimi 1752-ci ildə yaratmasından təxminən 125 il sonra Xan qızı Natəvan çəkdirib. Daha sonra həmin erməni bir-iki məhəlləyə bulaq çəkib. Mehmandarovlar öz məhəllələrində bulaq yaradıblar. Ümumiyyətlə, digər bulaqları da kimin pulu var idisə öz məhəlləsinə çəkirdi. Amma bir məsələ var. Sonradan yaradılan bulaqların hamısı Xurşidbanunun çəkdirib Şuşaya qədər gətirdiyi bulağın əsas qollarından yaradılıb". Beləcə, Azərbaycanın "kiçik Paris"i yaranandan sonra ilk dəfə su ilə Xan qızı Xurşidbanu Natəvanın yüz min qızıllıq sərmayəsi ilə təmin olunub. Şuşa şəhərinə ikinci dəfə su ilə həyat gətirən isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu oldu. O ordu ki, dəmir yumruğu ilə həmin Şuşa suyunu ermənilərin boğazına dağ edib tökdü, özü isə həmin bulaqdan cənnət qurtumu aldı".

**Ağarza Elçinoğlu**

# Məktəbli robot, maşın, kompüter deyil...

## Şagirdlərin insan olduğu sanki unudulub

*"Bu gün cəmiyyətdə hamının qınadığı, yuxarıdan aşağı baxdığı və hətta, "mübarizə apardığı" böyük bir zümrə var. Hansı ki, son illər sayları durmadan həndəsi silsilə ilə artır: narkomanlar, əyyaşlar, fahişələr, toksikomanlar, ehtiyacdan cinayət yoluna düşmüş digər insanlar... Təəssüf ki, onlarla heç bir təbliğat, nə cərimə, nə cəza kimi "mübarizə" üsulları heç vaxt gözlənilən nəticəni verməyib".*



**Bu sözləri "Şərq"ə açıqlamasında məktəb psixoloqu Famil Səfərov deyib. O hesab edir ki, belə hallarla mübarizənin yeganə və ən effektiv yolu - cəmiyyətin sağlamlaşdırılmasından keçir:** "Gəlin bir anlıq düşünək, heç onlarla danışıb, onların düşüncələrini almısınız? Yaxud digər zərərli vərdişlərə qurşananları heç dinləmisinizmi? Təbii ki, hamı bir anlıq çaş-baş qalacaq. Əlbəttə, gəmisi batana, dəvəsi çökənə yol göstərməyə nə var ki?! Kimisə qınamağa, həmişə hamımız hazırıq. Ən asan iş məsləhət verməkdi. Mən çox vaxt belə duruma düşmüş insanları dinlədikcə, bu gün bizim yaşamağa vadar edildiyimiz cəmiyyətin iç üzünün, eybəcərliklərinin inikasını sanki görürəm onlarda. Bir anlıq insan olaraq, onların yerinə özümü təsəvvür edirəm, bir fərd kimi onların acı taleyini anlamağa çalışıram. Və düşünürəm ki, bu gün elə bizim hər birimiz potensial narkoman, əyyaş, ya cinayətkarıq, sanki, dalana qısnanılmış və intihar həddinə gətirilmiş insanıq. Sadəcə, onlarla fərqimiz, bizim bir az həyatda bəxtmizin gətirməyindədir".

*F.Səfərov vurğulayıb ki, bu günləri çox təəssüf ki, məktəblilərin intiharına rast gəlirik. Təbii ki, bunlar sırasında məktəb proqramlarının ağırlığı ön sıradadır:* "Mən və mənim kimi onlarla təhsilin içində olan insanlar illərdir ki, Təhsil Nazirliyinə xitabən müxtəlif mövzulardakı yazılarımızda həyəcan təbili çalırdıq. Durmadan onları xəbərdar edirdik ki, cənablar, belə Təhsil Proqramı olmaz! Bir gün bunun dəhşətli acısını çəkəcəyik. Qurbanlar isə bizim günahsız balalarımız olacaq. Artıq illərdir ki, tədris proqramlarından şagirdlərin mənəvi dünyasını formalaşdıracaq, onların emosional aləmi üçün, etik-əxlaqi tərbiyəsi və sosial həyata hazırlanması üçün bütün fənləri bir-bir proqramdan çıxarıblar. Məktəbli nə robot, nə maşın, nə kompüter, nə də ki mexanizm deyil! Bəli, sanki robot kimi bu bilikləri, gərəksiz informasiyaları deklorativ şəkildə durmadan 11 il uşaqların kövrək çiyinlərinə və məsud beyinlərinə yükləyirlər. Pandemiyanın insanların psixikasında törətdiyi destruktiv fəsadlar bir yandan, Vətən müharibəsinin posttravmatik stresi bir yandan, insanların ağır sosial-iqtisadi durumu və karantin şəraitindəki total işsizliyin gətiriyi kütləvi yoxsulluq ümumilikdə bu gün cəmiyyətdə baş verənlərin başlıca səbəbləridir. Məntiqi nəticələr isə göz önündədir. Bəli, bütün belə fövqəladə hallarda "günah keçiləri" - məktəb psixoloqlarıdır. Məktəblərdə 300 manat kargüzar maaşına saxlanılan ali təhsilli mütəxəssislər. Bir zəhmət çəkib baxıb, görsünlər ki, son 3 ayda nazirlikdən RTŞlərinə məktəb psixoloqlarının işlərini yerinə yetirməsi üçün nə qədər əmr və göstərişlər, rəsmi məktublar ünvanlayıblar. Fevralın əvvəlində əyani təhsil bərpa olunanda məntiqlə məhz psixoloqlar ağır psixoloji sarsıntılardan sonra məktəbdə ən gərgin iş rejimində işləməli olan işçilər idilər. Ancaq bu göstərişlərdən sonra, psixoloqlar özlərinin illik və aylıq iş planlarını bir yana atıb, bu tədbirləri hazırlayıb keçirməyə məcbur ediliblər. Psixoloqlar isə yalnız bu tədbirlərdə iştirak edib öz müvafiq tövsiyələrini verə bilərlər. Ümumiyyətlə, əgər məsələyə elmi yanaşsaq, insanın psixo-fizioloji yaş dövrlərinin (ontogenezin) əsas kritik böhranlarının hamısı məktəb yaş dövrünə təfavüq edir. İndi mənə deyin, bizim təhsilimizin başbilənləri nə ağılla şagirdləri bu böhran yaş dövrlərində Allahın ümidinə, başlı-başına buraxdı?!".

"Ölkədə tətbiq edilən mövcud təhsil proqramında böyüməkdə olan nəslin hərtərəfli psixofizioloji inkişafı əsla nəzərə alınmayıb"

Psixoloq əlavə edib ki, hazırda ölkədə tətbiq edilən mövcud təhsil proqramında böyüməkdə olan nəslin hərtərəfli psixofizioloji inkişafı əsla nəzərə alınmayıb: "Bu gün təhsilin və dərs yükünün inkişafı yaş mərhələlərinə uyğun qurulmayıb. Habelə, tədrisdə varislik və davamlılıq prinsipinin pozulması, ən əsası isə bütövlükdə orta məktəb proqramında şagird şəxsiyyətinin, mənəvi aləminin və emosional sferasının formalaşması üçün demək olar ki, heç nəyin olmaması bugünkü təhsilin əsas çatışmazlıqlarıdır. Sanki şagirdlərin insan olduğu unudulub. Biz birdəfəlik bilməliyik ki, məktəb yaşlı uşağın harmonik inkişafı üçün hər hansı elmi bilikdən öncə onun - mənəvi, cinsi, milli və dini tərbiyəsi vacibdir. Bizim təhsilimizi yönəldən adamlar əgər düşünürlərsə, bütün bu boşluqları məktəbdə yalnız psixoloqlar doldurmalıdır, bu, əlbəttə kökündən yanlış yanaşmadır. Çünki bu xidmətin bütün dünyada qəbul olunmuş fəaliyyət istiqamətləri yalnız ümumi maarifləndirici, profilaktiki, diaqnostik, korreksiya və konsultasiyadır. Bu işləri də onlar illik planlarına əsasən bütün məktəb kollektivi üçün aparmalıdırlar. Aparılası fərdi işlər isə yalnız xüsusi hallar üçün nəzərdə tutulur.

*F.Səfərov onu da əlavə edib ki, bu gün məktəbə gələn şagird 10 il əvvəlki şagird deyil:* "Cəmiyyətin, elm və texnologiyanın inkişafı hazırda yeni nəsil - rəqəmsal nəsil yetişdirib. Məktəbin isə başlıca problemi bu yeni nəslə necə təhsil vermək problemidir. Çünki nə pedaqoji heyət, nə təlim-tədris proqramları, nə də hazırkı idarəetmə sistemi buna tamamilə hazır deyil. Biz indi hər şeyi yenidən qurmağa hazır deyilik, amma dediyim kimi, çətin də görünsə, çıxış yolları var. Təki bu işə məsul şəxslər çeviklik və kreativlik göstərsinlər, ölkənin təcrübəli və bacarıqlı mütəxəssislərini bu işə cəlb edib, təhsili hazırkı bu çətin durumdan çıxarmaqda istəkli olsunlar".

**Aynurə Pənahqızı**

# Qəzaların səbəbini bir tərəfdə axtarmaq doğru deyil

*Qatar yoluna yaxınlaşan zaman o qədər dikbaşlıq edən sürücülər var ki...*



Mart ayının 10-da Sumqayıt şəhərində yük qatarı ilə avtobus toqquşub. Hadisə nəticəsində nizamlayıcı işləyən 1972-ci il təvəllüdlü Abdullayev Murtuz Aleksey oğlu qatarla avtobus arasında qalaraq ölüb. Hadisə çox faciəvi sonluqla bitib. Qatarın hərəkətini tənzimləyən bələdçinin başı bədənindən ayrılıb.

"Azərbaycan Dəmir Yolları" QSC Sumqayıtda baş verən qatar qəzası ilə bağlı verilən məlumatda bildirib ki, mart ayının 10-u, saat 13:20 radələrində 10 çən vaqonu manevr teplovozu ilə Sumqayıt Çay Stansiyasına gətirilərkən qorunmayan dəmir yolu keçidindən keçməyə cəhd göstərən Maarif Valeh oğlu Lazımovun idarə etdiyi mikroavtobusla toqquşub: "Hadisə nəticəsində qatar tərtibatçısı Abdullayev Murtuz Aleksey oğlu dünyasını dəyişib. Hadisənin başvermə səbəbini müvafiq orqanlar aidiyyəti üzrə araşdıracaq və hüquqi qiymət verəcək".

Qeyd edək ki, ölkənin çox hissəsində maşın yolları ilə qatarların reysi kəsişir. Bir neçə yerdə isə həmin hissələr qorunmur. Belə halda isə ağır qəza hadisələri qaçılmaz olur.

**Məsələyə münasibət bildirən nəqliyyat üzrə ekspert Elməddin Muradlı bildirdi ki, qatarlarla avtomobil toqquşmalarının əsas günahkarı məhz maşın sürücüləridir:** "Yol hərəkəti haqqında" qanunda sürücülərə dəmir yolundan keçid qaydaları izah olunur. Orada sürücünün hansı halda nə etməli olduğu açıq-aydın qeyd olunub. Amma bizim bəzi sürücülərimiz keçidlərdə yaxınlaşan qatarı görsələr belə ya özlərinə, ya da maşınlarına güvənərək hərəkəti davam etdirib yolu keçməyə çalışırlar.

Hətta bəzi özündən razı, dikbaş sürücülər də var ki, şlaqbaunların arasından keçməyə cəhd edir.

Təəssüflər olsun ki, bəzi keçidlər ciddi mühafizə olunmur, nişanlar işlək vəziyyətdə deyil. Bəzən bələdçilər də yaşlı olur, bələdçi kabinəsində yatırlar. Heç qatarın keçdiyinin fərqinə varmırlar. Bəzi yerlərdə isə müxtəlif obyekt və ağaclar yol nişanlarının qarşısını kəsir. Bu cür problemlər var. Əfsus ki, dəmir yollarının ətrafı yaşayış məskənləri ilə sonradan zəbt olunub. Bu da təhlükə yaradır.

Düşünürəm ki, bizdə bu cür keçidlər ciddi şəkildə mühafizə olunmalı, nəzarət mexanizmi gücləndirilməlidir. Digər halda isə dəmir yolu xətləri mümkün qədər yaşayış məskənlərindən uzaqlaşdırılmalıdır. Bununla da dəmir yolu xətlərinin digər nəqliyyat vasitələri ilə kəsişməsinin qarşısını almaq olar".

**Ağarza Elçinoğlu**



## Nazilə yenə iddialıdır

"Haqsızlığa yenilmirəm, kimliyindən asılı olmayaraq saxta güclərə təslim olmuram"

**Tanınmış aparıcı, şairə Nazilə Səfərli tez-tez iddialı açıqlamaları ilə gündəmə gəlir. N.Səfərli yenə instaqram səhifəsində izləyicilərinin marağına səbəb olub.**

"Şərq" xəbər verir ki, o, fərqli görünüşdə fotosunu paylaşaraq bunları yazıb: "Düz adamın həm yolu, həm də dili uzun olar. Haqsızlığa yenilmirəm, kimliyindən asılı olmayaraq saxta güclərə təslim olmuram. Əsl güc isə yalnız Allaha məxsusdur".

**Samirə**

## İnsanlar icazəsiz hərbi paltar geyinməməlidir

Eyni zamanda satışı da qadağan olunmalıdır



**Zaman-zaman efirlərdə şou əhlini hərbi formalarda və başqa fərqli paltarlarda görürük. Lakin onlar ya formanı düzgün qaydada geyinmirlər, ya da çox uyğunsuz "kombin"lə çıxış edirlər.**

Nəticədə insanların haqlı tənqidlərinə tuş gəlirlər. Məsələn, müğənni Xatirə İslam verilişlərin birində hərbi papaqda olmasına baxmayaraq, son dərəcə açıq-saçıq geyimdə mahnı oxuyur.

Ötən il Vətən müharibəsi zamanı da belə görüntülərlə rastlaşdıq. Əsgərlərimizin şərəfli mundirinə sayğısızlıq edib, rütbələri yanlış taxır, hərbi səhvlərə yol verirdilər. Onların adlarını bir-bir sadalasaq, yazının həcmi böyüyər və mətləbdən uzaqlaşarıq.

Məlumat üçün bildirək ki, Xatirə İslamın həyat yoldaşı da hərbçidir.

**Gəlin, o formanı şərəflə daşıyan qazimiz Kamil Musavinin mövzu ilə bağlı "Şərq"ə dediklərini oxuyaq:** "Bu kimi halların əleyhinəyəm. Hərbi formanı qazilərimiz geyinir, şəhidlərimiz o libasda şəhadətə ucalıb. Ona görə hərbi mundir müqəddəsdir. Onu yalnız hərbi xidmətdən sonra icazəsi olan şəxslər, bir də hərbi qulluqçular geyinə bilər.

Məsələni Müdafiə Nazirliyinin hərbi polis idarəsi nəzarətə götürməlidir. İnsanlar icazəsiz hərbi paltarlar geyinməməlidirlər.

Eyni zamanda satışı da qadağan olunmalıdır. İstəyən hərbi xidmətə yollanıb, orda geyinsin. Sadəcə hörmət qazanmaq, özünü reklam etmək, cəmiyyətin diqqətini çəkmək üçün bu addımların atılması yanlışdır. Digər kamuflyaj paltarlardakı parçalar hərbi formaya bənzəmir. Tamam fərqli stillərdir.

Bu tip geyimləri fabriklər istehsal edirlər. Onlara qadağa qoyulması isə mümkünsüzdür. Sözügedən halların qarşısının alınması üçün dövlət səviyyəsində addımlar atmaq olar. Amma hazırda o formalardan istifadə edə bilirlərsə, deməli, nəzarət zəifdir".

**Samirə Ərəblinski**

# Uşaqlar informasiya axınında boğulur

Ölkəmizdə dərs yükünün ağır olması heç kəsə sirr deyil. Xüsusilə də, yuxarı sinif şagirdləri tədrisdə həddən artıq yüklənirlər. Həm fiziki, həm zehni, həm də emosional formada. Problemlərdən biri də dərsdən sonra onların 5-6 fəndən hazırlığa getməsi və axşam evə qayıdıb bu dərsləri oxumasıdır. Bütün bunlar istər-istəməz məktəblilərin psixoloji durumuna çox təsir göstərir.



## Heç olmasa, həftədə bir 45 dəqiqə psixoloqa dərs ayrılmalıdır

Üstəlik, son 1 ildəki qapanmalar da uşaqların psixoloji durumuna lap məhv təsir göstərdi. Psixoloji durumdan söhbət düşmüşkən qeyd edək ki, son günlər ictimaiyyətdə əsas müzakirə mövzularından biri məktəblərdə psixoloqların sayının və keyfiyyətinin artırılması, bu fəndən dərslərin tədris olunması məsələsidir. Hər kəsə məlumdur ki, məktəblərdə psixoloq var, amma psixoloqun dərs saatı yoxdur. Bəzi valideynlər övladlarına psixoloq dərslərin keçirilməsini istəyir. Çünki onlar hesab edirlər ki, yeniyetməlik dövründə uşaqlara mütləq psixoloji yardım lazımdır. Valideynlər heç olmasa həftədə 1 saat dərsin ayrılmasının tərəfdarıdırlar. Müəllimlər də bu fikirdədirlər. Onlar bununla şagirdlərin psixoloji durumunu izləməyin mümkün olacağını zənn edirlər.

**Mövzuya münasibət bildirən təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında tədris sisteminin yükünün çoxluğunun uşaqlarda müəyyən gərginliklər yaratdığını vurğulayıb:** "Qəbul və buraxılış imtahanlarının çətinliyi, eyni zamanda tədrisin onlayn qaydada olması onların şəxsi həyatlarına təsir edir. Nəticədə həm sinif yoldaşlarına, həm də ailə üzvlərinə qarşı münasibətləri tamamilə pozulur. Təxminən 30 il bundan əvvəllə müqayisə etsək, görərik ki, bizim şagirdlərimiz o zaman informasiya almırdılar. Yalnız bir telekanal var idi, təbii ki, internet yox idi. Ancaq məktəbə gedib, gəlirdilər. İndi isə informasiyanı sosial şəbəkələrdən - "Whatsap" və "facebook"dan alırlar. Yəni bu günləri uşaqların informasiya yükü həddən artıq çoxdur. Təbii ki, onların yaşları bunu qaldıra bilmir. Burda birmənalı şəkildə iş təbii ki, məktəbin üzərinə düşür. Məktəb deyəndə burda məktəb direktoru, direktor müavini, sinif rəhbəri, əsas da məktəb psixoloqu şagirdlərlə işləməlidir. Bu gün məktəblərimizdə məktəb psixoloqu ştat sahibi olsa da psixoloqların iş fəaliyyəti ilə bağlı konkret müddəalar müəyyənləşməyib. Düzdür, biz problemləri psixoloqlarda görürük. Amma psixoloqların fəaliyyəti üçün də problemlər var. Yəni onlara ayrıca iş saatı verilməyib. Ayrıca otaq, maddi texniki baza, avadanlıqlar yoxdur. Bunlar çox ciddi məsələlərdir. Vəziyyətdən çıxış yolu kimi biz nə edə bilərdik? Ən azından biz bilirik ki, 2020-ci ilin martın 3-dən dərslər ənənəvi qaydada deyil, onlayn formada keçirilir. Bu onlaynda məktəb psixoloqları üçün iş saatları ayrılmalı idi. İkincisi, məktəb psixoloqu məktəbin sosial şəbəkə hesabında, eyni zamanda internet resurslarında psixoloji testlər, motivasiya məqalələri, tədqiqatlar olmalı idi və onu uşaqlar oxumalı idilər".

**K.Əsədov bu günləri bu sahədə daha fəallıq nümayiş etdirməyin vacibliyinə diqqət çəkib:** "Məktəblilərin intiharında hamımızın günahı var. Çünki uşaqlara informasiyanı veririk, amma onlara problemdən çıxmağa köməklik göstərmirik. Düşünürəm ki, bütün təhsil ictimaiyyəti gənclərin yanında olmalıdır. Onları böhranlı vəziyyətdən çıxmağa kömək etməlidir. Təəssüf ki, məktəblərdə psixoloqların fəaliyyəti üçün hər hansı bir nizamnamə yoxdur. Heç olmasa, onlayn formada cədvəl müəyyənləşdirilən zaman həftədə bir 45 dəqiqədə psixoloq saatı ayırsınlar. Məsələn, bu günləri 6 dərs varsa, uşaqlar 3 dərs keçdilər, 4-cü dərsdə isə psixoloq dərsi olmalıdır ki, uşaqlar yorğunluqdan çıxsınlar. Onlarla psixoloji söhbətlər aparılsın. Hesab edirəm ki, bunlar olmadığı təqdirdə hələ də ciddi problemlərimiz olacaq".

**Aynurə Pənahqızı**



## Müdirlikdən imtina etdi

### Həyatını qulançara bağladı və kənd qadınlarına çörək verdi

(Əvvəli səh: 16-da)

**Və böyük uğur hekayəsinin müəllifi olub. Əsli Aksoy qulançar bitkisinin becərilməsində əldə etdiyi uğura görə Türkiyənin Tarım və Orman naziri Bəkir Pakdəmirli tərəfindən mükafata layiq görülüb.**

Əsli isə bu mükafatı onunla birgə çalışan bütün kəndli qadınların nailiyyəti olduğunu deyib. "17 ailənin büdcəsi bu bitkinin becərilməsindən gəlir əldə edir. 17 ailə qulançarın gətirdiyi qazancla dolanır" deyən kənd qadınları 5 ildir quşqonmaz becərdiklərini və ailə büdcələrinə gəlir gətirdiklərini söyləyiblər. Kənd qadınları "Əsli xanım gəldi və bura bir qapı açdı. O zamandan bəri tarlada çalışırıq. Ev işlərimizi görməyə də vaxtımız qalır. Həm tarlada, həm evdə çalışırıq. Bizim üçün çox yaxşıdır" deyirlər. Əsli Aksoy isə universiteti bitirdikdə ona təklif edilən müdir işindən imtina edib. Tarlada çalışmağı müdirlikdən üstün tutub.

**Məlahət**

# Heç belə olmamışdı

### Dünyada əkiz doğulan uşaqların sayı kəskin artır

(Əvvəli səh: 16-da)

Ən yüksək göstərici isə Avropa və Şimali Amerikada görülməkdədir. Qeyd edək ki, dünyada hər il təxminən 1,6 milyon əkiz uşaq dünyaya gəlir. Bu o deməkdir ki, 42 uşaqdan biri əkiz olaraq dünyaya göz açır. Süni mayalanma kimi tibbi üsullar da 1980-ci illərdən bəri əkiz doğuş nisbətini üç dəfəyədək artırıb.



Əkiz doğuşların sayının çox olması demək olar ki, dünyanın bütün bölgələrində müşahidə olunmaqdadır. Mütəxəssislər Afrikada əkiz doğum sayının həmişə yüksək olduğunu qeyd edirlər. Hesab edirlər ki, son 30 ildə də bu göstərici dəyişməyib. Hazırda Afrika və Asiya dünyadakı bütün əkiz doğuşların sayına görə liderdir və 80 faiz təşkil edir. Oksford Universitetinin professoru Kristiyan Monden bunun səbəbini belə izah edir: "Afrikada əkiz doğuş nisbəti çox yüksəkdir, çünki burada cüt yumurta əkizlərinin sayı çoxdur. Bu, ehtimal ki, Afrika əhalisi ilə digər populyasiyalar arasındakı genetik fərqlərə görədir".

Məlumat üçün bildirək ki, Avropada, Şimali Amerikada və Okean ölkələrində də əkiz doğum sayı artmaqdadır. Buna ilk növbədə tibbi yardımla çoxalma - ekstrakorporal mayalanma, intrasitoplazmatik sperma inyeksiyası, süni mayalanma, yumurtalıq hamiləliyi. Bunlar təbii ki, 1970-ci illərdən bəri əsas hərəkətverici qüvvə olub. Tədqiqatçılar daha yaşlı hamiləliyin artdığını, doğuşa nəzarətin mütəmadi olmasının saya təsir etdiyini qeyd ediblər.

Ancaq professor Monden tək hamiləliklərin daha az riskli olduğunu söyləyir: "Əkiz doğuşlar zamanı körpələr və analar arasında ölüm riski daha yüksəkdir. Belə hallarda bəzən hər ikisində həm doğuş zamanı, həm də sonrasında bir çox fəsadlar olur. Yaxud da ki, vaxtından əvvəl doğulurlar, daha az çəkili olurlar".

Aparılmış araşdırmaya görə, aşağı və orta gəlirli ölkələrdə əkizlərin yaşamaq ehtimalı varlı ölkələrə nisbətən daha azdır. Xüsusilə Afrikanın Sahara bölgəsində əkizlərdən biri çox zaman həyatlarının ilk ilində ölür. Bu isə hər il 200 mindən çox körpə deməkdir. Tədqiqatçılar gələcəkdə Hindistan və Çində də əkiz doğum sayının artacağını proqnozlaşdırırlar. Gələcəkdə süni mayalanma da əkiz sayına təsir edəcək.

**Aynurə Pənahqızı**



## Dünyanın ən böyük ölü şəhəri...

### Şəhər təpənin üstündə tikilmiş ağ hündür evlərdən ibarətdir

(Əvvəli səh: 16-da)

**Bölgəni ziyarət edənlərin çoxu arxeoloqlardır.**

Onlar ölülərin qayıq içində dəfn olduğunu araşdırıblar. Şəhərdə axar su olmadığı üçün əraziyə qayıqların haradan gəldiyi isə məlum deyil. İnanca görə ruhlar cənnətə getmək üçün çay keçməlidirlər. Ehtimal olunur ki, məhz buna görə ölülər qayıqda dəfn olunub. Min il əvvəl Monqol döyüşündə öldürülən insanları dəfn etmək üçün inşa edilən şəhərdə ölülər əşyaları ilə birlikdə dəfn ediliblər. Gürcüstan sərhədlərində yerləşən bölgədə əsrlərdir ayaqda qalan Darqavs XVI əsrdən etibarən yaxınlıqda yaşayan insanların da dəfn olunduğu ölü şəhərə çevrilib. Ölüm şəhərində yeraltı və yerüstü olmaqla ümumilikdə 95 məzar var. Bunlardan 30-nun zəngin, 65-nin isə yoxsul insanlara aid olduğu iddia olunur.

**Aynurə**

**Elan**

107 saylı orta məktəb tərəfindən Ramazanova Şəmsiyyət Ramazan qızının adına verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

Yunisov Elvin Elşən oğluna məxsus çek kitabçası itdiyi üçün etibarsız sayılır.

## "Nar" 2020-ci ilin yekunları ilə bağlı hesabatını açıqladı




"Nar" media nümayəndələrinin də iştirakı ilə keçirilən mətbuat konfransında 2020-ci ilin yekunlarına dair hesabatını açıqlayıb. Mobil operator 2020-ci ildə müştəriyönümlü strategiyasına sadiq qalaraq xidmətlərini yeni reallıqlara və müştərilərinin dəyişən tələblərinə uyğunlaşdırıb.

Həmçinin "Nar" Vətən müharibəsi və koronavirus pandemiyası ilə səciyyələnən bu ildə rəqəmsal kanalların inkişafına xüsusi diqqət ayırıb və müxtəlif sosial layihələrlə cəmiyyətə dəstəyini davam etdirib.

İlin ilk rübündən etibarən karantin məhdudiyyətlərini nəzərə alaraq, mobil operator müştərilərin evdən çıxmadan bir çox xidmətlərdən yararlana bilməsi üçün "Səyyar Nar"ı istifadəyə verdi. Həmçinin onlayn kanallarla nömrə satışları da aktuallaşdı. Belə ki, narsim.az saytı vasitəsilə minlərlə müştəri yeni "Nar" abunəçisinə çevrildi. Ümumilikdə, səyyar xidmət və onlayn satış kanalları üzərindən 8000-dək sorğu icra edildi.

Müştəri təcrübəsinin daha əlverişli olması üçün il boyunca 19 satış nöqtəsi və 3 "Nar" xidmət mərkəzi yeni konseptə uyğun olaraq abunəçilərin istifadəsinə verilib. Məqsəd müştərilərin bütün təmas nöqtələrində vahid və üstün keyfiyyətli xidmət əldə etməsidir. Şirkətin müştəriyönümlü strategiyasının bir parçası olaraq, mağaza və xidmət mərkəzlərinin yenilənməsi bu il də həm Bakı, həm də bölgələrdə davam etdiriləcək.

Mobil operator ötən il boyunca şəbəkə təkmilləşdirməsi işlərinə də davam edib. Ümumilikdə, 150-dən çox yeni baza stansiyası quraşdırılıb ki, bununla da 4G baza stansiyalarının sayı 2700-ü, 3G baza stansiyalarının sayı isə 2800-ü ötüb. Hazırda şəbəkədəki ümumi internetin təxminən 84%-i LTE-A texnologiyalı baza stansiyaları üzərindən verilir. Bundan başqa, ölkə ərazisində yeni baza stansiyalarının quraşdırılması sayəsində 4G istifadəçilərinin sayı 33% artıb. Bu göstərici üzrə xüsusi artım isə 52%-lə bölgələrdən olan istifadəçilərin payına düşür.

Karantin rejimi müddətində "Nar" müxtəlif kanallar vasitəsilə gücləndirilmiş rejimdə abunəçilərinə xidmət göstərib. 2020-ci il ərzində 777 Çağrı Mərkəzinə 2,5 milyondan çox sorğu daxil olub və onlara ortalama 20 saniyə ərzində cavab verilib. Çağrı Mərkəzinə müraciət etmiş abunəçilərin 85%-i göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib. Hesab üzərində bir çox əməliyyatları yerinə yetirməyə imkan verən "Nar+" tətbiqinin onlayn çat xidmətinə isə 1 il ərzində 195 mindən artıq sorğu daxil olub. Mobil operatorun rəsmi sosial media səhifələri vasitəsilə 205 mindən çox abunəçinin sorğusuna dərhal cavab verilib.

2020-ci il ərzində müştərilərə göstərilən yüksək keyfiyyətli xidmət sayəsində mobil operatorun müştəri loyallığı indeksi üzrə 30% artım qeydə alınıb. Abunəçilərin seçiminə təsir edən 3 əsas amil zənglər və mobil internet üçün ən yaxşı qiymətlər, şəbəkə keyfiyyətindən razılıq və kəsintisiz zənglər, internet və zənglər üzrə sərfiyyatın hesablanma dəqiqliyi olub. Qeyd edək ki, müstəqil araşdırma şirkətləri tərəfindən aparılmış sorğunun nəticələrinə əsasən, "Nar" müştəri məmnuniyyəti indeksi üzrə liderliyini artıq ardıcıl 2-ci ildir ki, qoruyub saxlayır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Psixologiya və Para psixologiya** (3-12 ay)

**Tel: (012) 566-88-96**

**(012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 479

# Dünyanın ən böyük ölü şəhəri...

## Şəhər təpənin üstündə tikilmiş ağ hündür evlərdən ibarətdir



**Darqavs dünyanın ən maraqlı və sirli yerlərindən biridir.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, Rusiyanın cənubunda Qafqaz dağlarının ətəyində yerləşən Darqavs dünyanın ən böyük ölü şəhərlərindən biri hesab olunur. Darqavs həm də yüz illər əvvəl yaşamış minlərlə ölü insanın məzarıyeridir. Rusiyanın Osetiya bölgəsində 5 sıra dağın birində yerləşən şəhər haqqında qorxulu hekayələr mövcuddur. Darqavs şəhəri uzaq və çətin ərazidə yerləşdiyi üçün turistik məkan hesab olunmur. Şəhər təpənin üstündə tikilmiş ağ hündür evlərdən ibarətdir.

*(Davamı səh: 15-də)*

# 1 dollara ev satılır

## Artıq evlərə bir çox alıcılar müraciət etməyə başlayıb



**Aralıq dənizinin ən böyük adası olan Siciliyanın mədəniyyəti mafiya filmləri ilə populyardır. Eyni zamanda burada Siciliya mətbəxi və Etna vulkanı da olduqca məşhurdur.**

İtaliyanın cənubunda yerləşən Siciliya adası hər il əhalinin azalması problemi ilə mübarizə aparır. İllərdir bölgədəki bələdiyyələr bu vəziyyəti düzəltmək üçün müxtəlif təşviq proqramları həyata keçirirlər. Belə proqramlardan birinə də Siciliyanın mərkəzi hissəsində yerləşən Troina qəsəbəsi imza atıb. Deməli, qəsəbə ora köçməyə razı olanlara bir dollarlıq evlər təklif edir. Əgər bura gələn insanlar Troina qəsəbəsində yaşamağa qərar versə, 1 dollar verərək ev sahibi ola bilərlər.

Almaq üçün çox münasib olan evlər eyni zamanda tarixi özəlliyi ilə seçilir. Artıq evlərə bir çox alıcılar müraciət etməyə başlayıb.

**Aytac Ali**

# Şagirdini azotla yandırdı

## Kimya müəllimi hakim qarşısına çıxarılıb





**Şagirdini kimyəvi turşuyla yandıran müəllimin məhkəməsi keçirilib.**

Milli.Az nypost-a istinadla bildirir ki, şagirdinin üstünə maye halında azot tökməklə onun qasıq bölgəsini və barmağını yandıran müəllim hakim qarşısına çıxarılıb.

Olay ABŞ-ın İllinoys ştatında yaşanıb. Çikaqodakı məktəblərin birində kimya müəllimi işləyən 66 yaşlı Garry Broderson şagirdini yandırdığına görə həbs olunub. O, 1 il müddətinə azadlıqdan məhrumetmə ilə cəzalandırılıb.

# Pikassonun əsərləri 35 milyona hərraca çıxarılacaq



**İspan rəssam Pablo Pikasssonun iki əsəri hərraca çıxarılacaq.**

Axşam.az xəbər verir ki, Pikassonun Boyunbağılı çılpaq", "Qara stulda əyləşən Jaklin" adlı əsərləri martın 23-də Londondakı "Christies" hərrac evində nümayiş olunacaq.

Portretlərin 6-15 milyon sterlinq (təxminən 14-35 milyon manat) arası satılacağı ehtimal olunur.



# Heç belə olmamışdı

## Dünyada əkiz doğulan uşaqların sayı kəskin artır



**Dünyada əkiz uşaqların sayında kəskin artım müşahidə edilməkdədir.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, tədqiqatçılar 165 ölkədən 2010-2015-ci illər arasında əkiz doğuş sayı haqqında məlumatlar toplayıblar. Əldə edilmiş məlumatlar 1980-1985-ci illər arasındakı nisbətlərlə müqayisə edilib. Araşdırmaya görə, dünyada indi əvvəllər olduğundan daha çox əkizlər dünyaya gəlir. Yəni hazırda dünyada 1000 doğuşda əkiz uşaqların doğum sayı 9-dan 12-yə yüksəlib.

***Aynurə***

*(Davamı səh: 15-də)*



# Müdirlikdən imtina etdi

## Həyatını qulançara bağladı və kənd qadınlarına çörək verdi







**Türkiyənin Orta Doğu Texniki Universitetinin idarəçilik ixtisası üzrə məzunu Əsli Aksoy quşqonmaz bitkisini ilk dəfə xarici ölkədə olarkən dadıb.**

Quşqonmaz bildiyimiz qulançardı. Bəzi bölgələrdə mərəçüyüd, mollaçıçəyi də deyilir. Bu bitki mineral maddələr deposudur; mis, dəmir, sink, selen, kalium, sodium, patsium, maqnezium, fol, asparagin turşusu, vitamin A, B6, B12... Yəni Mendeleyev cədvəlindəki kimyəvi maddələrin az qala yarısı bu bitkidə cəmləşib. Qulançar ürək-damar sistemi, qan təzyiqi, böyrək çatışmazlığı, şəkər, qara ciyər xəstəliklərində faydalıdır. Qanı təmizləyir, xərçəngə qarşı effektlidir. İltihab əleyhinədir. Görünür, bunları bildiyindən universitet məzunu Əsli Aksoy onun yetişdirilməsinə qərar verib. Muğlanın Yeşilcam məhəlləsindəki torpaq sahəsində kənd qadınları ilə birlikdə qulançar becərilməsinə başlayıb.

*(Davamı səh: 15-də)*

# Seda Sayan 200 minlik davanı uduzdu

## Hakim təzminat tələbini rədd edib



**Bir müddət əvvəl müğənni Seda Sayan aparıcı Zuhal Topalı onu təhqir etdiyi üçün məhkəməyə verərək təzminat davası açıb.**

Türkiyə mediası bildirir ki, sənətçinin aparıcıya və onun həyat yoldaşı Korhan Sayqınerə qarşı açdığı dava nəticəsiz qalıb.

Hakim Sayanın 200 min lirəlik *(45 min 320 manat)* təzminat tələbini rədd edib.